**QARABAĞ AZƏRBAYCANDIR!**

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 216 (8809) CÜMƏ, 8 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Qalib KOMANDAN, qətiyyətli LİDER, qurucu PREZİDENT

# İlham Əliyev Vladimir Putini təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Dövlətimizin başçısı Rusiya Prezidentini ad günü münasibətilə təbrik edib, ona ölkənin inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirib, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar. Telefon söhbəti zamanı bölgədəki vəziyyət müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

# Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər




Oktyabrın 7-də Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva açılışda iştirak ediblər.

Bakı Zooloji Parkı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulub.

Xatırladaq ki, vaxtilə Bakıda ilk dəfə Heyvanat Parkı adlandırılan zoopark 1928-ci ildə Xətai rayonundakı Nizami parkının ərazisində açılıb. 1958-ci ildə isə Bayıl ərazisində yeni Heyvanat Parkı fəaliyyətə başlayıb. 1985-ci ildə torpaq sürüşməsindən sonra Zoopark Bayıldan indiki ərazisinə köçürülüb. Əvvəllər ərazinin təmirsiz olması ilə yanaşı, heyvanların saxlanıldığı yerlər də yararsız vəziyyətdə olub.

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə burada genişmiqyaslı yenidənqurma işləri aparılıb. Təxminən 4 il davam edən əsaslı yenidənqurma işləri nəticəsində Bakı Zooloji Parkı ən müasir səviyyəyə çatdırılıb.

Prezident İlham Əliyevin ölkəmizin inkişafı ilə bağlı müəyyən etdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə Bakıda sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb.

*Ardı 2-ci səh.*

# İlham Əliyevin Qarabağın dirçəlişi planı parlaq gələcək vəd edir

* Suqovuşanda və Talışda bayrağımız ucaldı;
* Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı oldu;
* Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməli qoyuldu;
* Suqovuşan və Talışa gedən avtomobil yolları açıldı;
* Cəbrayılda "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu"nun birgə servis mərkəzinin təməli qoyuldu;
* Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməli qoyuldu;
* "Cəbrayıl" yarımstansiyasının açılışı oldu;
* Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi keçirildi;
* Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışı oldu;
* Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməli qoyuldu;
* Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimi keçirildi;
* Cəbrayılda Memorial Kompleksin və şəhərin bərpasının təməl daşı qoyuldu.

*Ardı 5-ci səh.*

## *CAREC İnstitutu:*

# "Azərbaycan iqtisadiyyatı pandemiya tənəzzülündən sürətlə çıxan ölkədir"

İki ilə yaxındır ki, dünya koronavirus pandemiyasının yaratdığı fəsadlardan əziyyət çəkir. COVID insan tələfatı ilə yanaşı, dünya əhalisinin yoxsulluq və sosial problemlər cəngində yaşamasına da səbəb olub. Hazırda virus bir qədər səngisə də, öz mənfi təsirini göstərməkdə davam edir.

Təbii ki, bütün bu problemlər az və ya çox dərəcədə Azərbaycandan da yan keçməmişdir. Bununla belə, zamanında aparılan islahatlar və qeyri neft-qaz sektorunun inkişafı, sahibkarlığa verilən dəstək ölkəmizə pandemiya dövründə iqtisadi itkilərimizi minimum səviyyəyə endirməyə imkan vermişdir.

*Bax: səh. 7*



# "Dəmir yumruq" qələbənin, "dəmir iradə" dirçəlişin rəmzidir

Xəbər verildiyi kimi, bu günlər Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoymuşdur.

Cəbrayıl rayonunda yaradılacaq sənaye parkının 200 hektarlıq ərazisində kənd təsərrüfatı məhsullarının emalı, sənaye, sosial və texniki zonaları fəaliyyət göstərəcək. Burada logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələri qurulacaq.

Sənaye parkının yaxınlığındakı sosial zonada isə 150 nəfərlik konteyner şəhərciyi salınacaq. Şəhərcikdə parkın idarə olunması və rezidentlər üçün ofis binaları, inzibati heyət, rezidentlər, tikintini həyata keçirən mühəndis və fəhlələr üçün yaşayış binaları və lazım olan bütün digər infrastruktur yaradılacaq.

Cəbrayılın işğaldan azad olunmasının birinci ildönümündə "Araz Vadisi İqtisadi Zonası"nın təməlinin qoyulması rəmzi məna daşımaqla yanaşı, həm də dövlətimizin işğaldan azad edilmiş ərazilərin dirçəlişini sürətlə və dünyanın müasir tələbləri səviyyəsində aparmağa qadir olduğunu təsdiq edən nümunədir. "Dəmir yumruq" qələbəni necə təmin etmişsə, indi biz "dəmir iradə"nin 30 illik erməni işğalı zamanı yerləyeksən edilmiş əraziləri necə sürətlə dirçəltməsinin şahidiyik.

Bütün bunların fonunda erməni mətbuatı "yeni müharibə"yə kimin hansı tərzdə qoşulacağını araşdırır, Azərbaycan üçün "yaranan təhlükələr"dən dəm vurur.

*Ardı 5-ci səh.*

# Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışı olub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər










Əvvəl



Sonra



Əvvəl



Sonra



*Əvvəli 1-ci səh.*

Şəhər həyatının müxtəlif layihələrlə zənginləşdirilməsi sırasında IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulan Bakı Zooloji Parkının xüsusi yeri var. Ümumilikdə IDEA İctimai Birliyi paytaxtla yanaşı, bölgələrdə də ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli istiqamətində çox mühüm layihələr icra edib. Bakı Zooloji Parkı dünyada mövcud olan müasir zooparklar səviyyəsində yaradılıb. Təbii ki, bu layihə postpandemiya dövründə yenidən Bakıya səfər edəcək turistlərin ən çox üz tutacaqları məkanlardan biri olacaq. Yenidənqurmadan sonra Zooloji Parkın kompleksi ziyarətçilər üçün rahat və maraqlı məkana çevrilib, ümumi ərazisi, demək olar ki, iki dəfə artırılaraq 4.25 hektara çatdırılıb.

Yenidənqurma işləri zamanı ərazidə mövcud olan ağac və kolların tam qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Ümumiyyətlə, abadlaşdırılan və yaşıllıq sahəsi artırılan zooparkda daha təbii mühit yaradılıb. Digər yeniliklər və müxtəlif əyləncə obyektləri ilə yanaşı, ərazidə uşaq meydançası, lektoriya və elektron bələdçi sistemi var. Zoopark hamının, o cümlədən fiziki qüsurlu şəxslərin, bütün yaş qruplarından olan ziyarətçilərin istirahət edə və maariflənə biləcəyi məkana çevrilib. Əsaslı yenidənqurma işləri nəticəsində zooparkın sakinləri üçün daha rahat volyerlər, akvaterrarium, kontakt zooparkı, süni göl və hovuzlar, baytarlıq klinikası inşa edilib. Heyvanların saxlandığı volyerlər hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq hazırlanıb və sahəsi kifayət qədər genişləndirilib.

Bakı Zooloji parkının yalnız görünüşü deyil, həm də məram və yanaşmasının yeni olduğu xüsusi qeyd edilməlidir. Zooparkın əsas məqsədi insanlar üçün canlı aləm, xüsusən də Azərbaycanın nadir faunası haqqında məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevrilməsindən ibarətdir. Bu xüsusda, Azərbaycanın "Qırmızı kitab"ına daxil olan növlərin təbii populyasiyası və reintroduksiyası baxımından, burada heyvanların artırılması üçün münbit şərait yaradılıb. Hazırda zooparkdakı heyvan növlərinin ümumi sayı 125, "Qırmızı kitab"a düşən növlərin sayı isə 22-dir.

Qeyd edək ki, zooparklar yalnız əyləncə məkanı deyil, həm də elmi-maarifçilik müəssisəsi funksiyasını yerinə yetirir. Ümumiyyətlə, zooparkın fəaliyyət istiqamətlərinə ətraf mühitin, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlərin mühafizəsi, çoxaldılması üzrə işlərin həyata keçirilməsi, heyvanların müvafiq tələblərə uyğun saxlanılması üçün şəraitin yaxşılaşdırılmasına yönəlmiş tədqiqat işlərinin aparılması, canlı aləm və biomüxtəlifliyin qorunması sahələrində insanların məlumatlandırılması daxildir.

# Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib





Oktyabrın 7-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikası İqtisadi Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2021-ci il fevralın 2-də imzalanmış "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" barədə Sərəncamdan irəli gələrək hazırlanmış "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın ilkin layihəsi ətraflı müzakirə olunub. Tədbirdə 5 Milli Prioritet istiqamətində Strategiyanın hazırlanması məqsədilə yaradılmış Komissiyanın 10 alt işçi qrupunun rəhbərlərinin görülən işlər, strateji məqsədlər, fəaliyyət istiqamətləri və qarşıda duran hədəflər barədə məruzələri dinlənilib.

İqtisadi Şuranın iclasının oktyabrın 8-də davam etdirilməsi planlaşdırılıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşüb

Oktyabrın 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikası Silahlı Qüvvələrinin 3-cü Ordu Komandanı, general-polkovnik Yavuz Türkgəncinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyətini Azərbaycanın Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərdən bəhs edən Ali Məclisin Sədri "Sarsılmaz qardaşlıq-2021" birgə döyüş atışlı taktiki təlimin uğurla başa çatması, eləcə də yeni vəzifəyə təyin olunması münasibətilə Yavuz Türkgənciyə və nümayəndə heyətinə təbriklərini çatdırıb. Ali Məclisin Sədri Azərbaycan-Türkiyə birgə təlimlərinin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə ehtiramını ifadə edib.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Yavuz Türkgənci səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlığını bildirib, ikitərəfli əlaqələrimizdə ordu quruculuğu sahəsində görülən işləri yüksək dəyərləndirib. Yavuz Türkgənci bu istiqamətdə fəaliyyətin davam etdiriləcəyini və hər zaman Azərbaycanın yanında olacaqlarını bildirib.

Sonda xatirə şəkli çəkdirilib.

# Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin ailələrinin, xəsarət almış hərbçilərin və əlillərin sosial müdafiəsi gücləndirilir

Ərazilərin işğaldan azad olunması zamanı şəhid olmuş şəxslərin ailə üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə sosial müdafiə, məşğulluq və digər sahələrdə göstərilən xidmətlərin keyfiyyəti yüksəldilir.

AZƏRTAC Nazirlər Kabinetinin saytına istinadla xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə göstərilən xidmətlərin vahid məkandan həyata keçirilməsini təmin etmək məqsədilə "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri" yaradılıb. Fərmanda sözügedən mərkəzlərdə göstəriləcək xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı, habelə həmin xidmətlərin göstərilməsi qaydası müəyyən olunub.

Bundan irəli gələrək Nazirlər Kabinetinin bir neçə sosial qərarlarında dəyişiklik edilib. Belə ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Ordusunun hərbi qulluqçularına münasibətdə müharibə veteranı adının və vəsiqəsinin, habelə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən şəxsin müharibə veteranı olmasına dair arayışın verilməsi üçün, məcburi dövlət sosial sığortası üzrə ödəmələrin hesablanması və ödənilməsi, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə qulluq və kömək göstərə biləcək qohumların olmamasının müəyyənləşdirilməsi, evdə (səyyar) sosial xidmətin göstərilməsi, çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi, sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması üçün maraqlı şəxs "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri"nə də müraciət edə bilər.

# Rumıniyanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

Oktyabrın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rumıniyanın ölkəmizə yeni təyin olunmuş səfiri Vasile Soarenin etimadnaməsinin surətini qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan və Rumıniya arasında mövcud olan sıx əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətlərini qeyd edən nazir ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi potensialını vurğulayıb və bu xüsusda birgə səylərə ehtiyac duyulduğunu qeyd edib. Nazir ölkələrimiz arasında, həmçinin beynəlxalq platformalarda əməkdaşlığın həyata keçirildiyini məmnunluqla bildirib.

Daha sonra nazir Ceyhun Bayramov bölgədə mövcud olan cari vəziyyət, münaqişənin həllindən sonra yaranmış yeni reallıqlar, azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işləri, habelə mövcud olan mina təhlükəsindən bəhs edib. Görüşdə işğal faktorunun aradan qaldırılması ilə Ermənistanla münasibətlərin normallaşdırılmasının mümkün olduğu və bunun üçün, ilk növbədə, üçtərəfli bəyanatların icrasına tam riayət olunması, kommunikasiyaların açılışı, habelə delimitasiya prosesinə başlanılmasının vacib olduğu vurğulanıb.

Səfir Vasile Soare iki ölkə arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinə istinad edərək bu münasibətləri həqiqi tərəfdaşlıq kimi dəyərləndirib. O, ikitərəfli münasibətlərin əsasında beynəlxalq hüququn ərazi bütövlüyünə hörmət prinsipinin dayandığını və bunun Rumıniyanın prinsipial mövqeyi olduğunu bildirib. Səfir iki ölkə arasında mövcud olan tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi, o cümlədən siyasi dialoqun davam etdirilməsi, iqtisadi, energetika, bağlılıq, eləcə də mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi perspektivlərindən bəhs edib.

Tərəflər bütün istiqamətlər üzrə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini və bu xüsusda, mövcud imkanlardan tam istifadə olunması qətiyyətini ifadə ediblər.

## Pakistan İslam Respublikasının Prezidenti zati-aliləri cənab Arif Alviyə

Hörmətli cənab Prezident!

Ölkənizin Bəluçistan əyalətində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 may tarixli 701 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 may tarixli 701 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 853) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddən (birinci halda) və 2.0.3-cü yarımbənddən ismin müvafiq hallarında "(bitki sortları)" sözləri çıxarılsın.

2. Aşağıdakı məzmunda 3.0.17-1-ci yarımbənd əlavə edilsin:

"3.0.17-1. fiziki və hüquqi şəxslərin, habelə dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının müraciəti əsasında fitosanitar karantin baxışı keçirmək və müayinə aparmaq, bitki və bitkiçilik məhsullarında, torpaqda, suda, bitki mühafizə vasitələrində toksikoloji analizlər aparmaq, eləcə də nəticələrinə dair müvafiq arayışlar vermək;".

3. 3.0.19-cu yarımbənddən ismin müvafiq hallarında "(bitki sortları)" sözləri çıxarılsın, həmin yarımbənddə "sınağını keçirmək" sözləri "sınağının keçirilməsini təmin etmək" sözləri ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 4.0.13-1-ci yarımbənd əlavə edilsin:

"4.0.13-1. beynəlxalq qurumların və yerli fiziki və hüquqi şəxslərin maliyyə dəstəyi ilə aqrar sahədə layihələrin icrasını təşkil etmək;".

5. 5.1-ci və 5.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"5.1. Agentlik öz fəaliyyətini Aparatı və tabeliyindəki qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr rəhbərlik edir. Agentliyin sədri Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.".

6. 5.3-cü bənddə "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

7. 5.5.3-cü yarımbənddə "ödənilməsi" sözü "ödənişi" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "Aparatının" sözündən sonra "və tabeliyindəki qurumların" sözləri əlavə olunsun.

8. 5.5.5-ci yarımbənddə "Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin vəzifəyə təyin etdiyi digər" sözləri "Agentliyin" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "digər işçilərini" sözlərindən sonra ", habelə tabeliyindəki qurumların işçilərini (hüquqi şəxslərin isə yalnız rəhbərlərini) Nazirliklə razılaşdırmaqla" sözləri əlavə olunsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 90, № 11, maddə 1719; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1479; 2021, № 3, maddə 225, № 5, maddə 452, № 6 (I kitab), maddə 572; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 sentyabr tarixli 1449 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 7.3.9.3-cü yarımbəndin "Tədbirin adı" sütunundan "o cümlədən: - Beyləqan Regional Aqrar Elm və İnnovasiya Mərkəzində elmi-tədqiqat-təcrübə-sınaq-təlim mexanizminin qurulması" sözləri çıxarılsın.

2. 7.3.15.3-cü yarımbəndin "Tədbirin adı" sütunundan "o cümlədən: - Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzində elmi-tədqiqat-təcrübə-sınaq-təlim mexanizminin qurulması" sözləri çıxarılsın.

3. 7.3.19.3-cü yarımbəndin "Tədbirin adı" sütunundan "o cümlədən: - Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzində elmi-tədqiqat-təcrübə-sınaq-təlim mexanizminin qurulması" sözləri çıxarılsın.

4. 7.3.26.2-ci yarımbənd ləğv edilsin.

5. 7.3.45.3-cü yarımbəndin "Tədbirin adı" sütunundan "o cümlədən: - Lənkəran Regional Aqrar Elm və İnnovasiya Mərkəzində elmi-tədqiqat-təcrübə-sınaq-təlim mexanizminin qurulması" sözləri çıxarılsın.

6. 7.3.52.3-cü yarımbəndin "Tədbirin adı" sütunundan "o cümlədən: - Şəki Regional Aqrar Elm və İnnovasiya Mərkəzində elmi-tədqiqat-təcrübə-sınaq-təlim mexanizminin qurulması" sözləri çıxarılsın.

7. 7.3.56.3-cü yarımbəndin "Tədbirin adı" sütunundan "o cümlədən: - Tərtər Regional Aqrar Elm və İnnovasiya Mərkəzində elmi-tədqiqat-təcrübə-sınaq-təlim mexanizminin qurulması" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1226; 2018, № 4, maddə 720, № 11, maddə 2296; 2019, № 5, maddə 909, № 8, maddə 1418) 5-ci hissəsində "207" rəqəmləri "202" rəqəmləri ilə və "49" rəqəmləri "57" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2021-ci il*

## "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301; 2006, № 2, maddə 91, № 5, maddə 397; 2007, № 2, maddə 87; 2008, № 6, maddə 488, № 11, maddə 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2014, № 6, maddə 638; 2015, № 2, maddə 132, № 7, maddə 840; 2016, № 12, maddə 2095; 2017, № 3, maddə 378, № 6, maddə 1079; 2018, № 6, maddə 1233, № 7 (I kitab), maddə 1511; 2019, № 3, maddə 409, № 4, maddə 619, № 5, maddələr 854, 855) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 11.9-1-ci və 11.42-1-ci bəndlər əlavə edilsin:

"11.9-1. seleksiya nailiyyətlərinin qeydiyyatını və patent mühafizəsini, habelə "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər vəzifələri tabeliyindəki qurum vasitəsilə təşkil edir və onların icrasına nəzarəti həyata keçirir;";

"11.42-1. Nazirliyin kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən aidiyyəti işçilərini təsviri və təchizat norması Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən xüsusi geyim forması və fərqlənmə nişanları ilə, habelə siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən nəzarət-ölçü cihazları ilə və digər xüsusi vasitələrlə təmin edir;";

1.2. 18.2-ci bənddən "bilavasitə" sözü çıxarılsın;

1.3. 18.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"18.6. Nazirliyin Aparatının işçilərini, strukturuna daxil olan və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və onların müavinlərini, struktur bölmə rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, digər işçilərin (tabeliyindəki qurumların strukturuna daxil olmayan hüquqi şəxslərin yalnız rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətini həyata keçirən işçilərin xüsusi geyim formasının, fərqlənmə nişanlarının təsvirini və təchizat normasını, habelə kənd təsərrüfatı texnikası sahəsində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri olan nəzarət-ölçü cihazlarının və digər xüsusi vasitələrin Siyahısını üç ay müddətində təsdiq etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmiş, öz xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən şücaət və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Abdullayev Cəsarət Ramazan oğlu - mayor
Gəncəliyev Həsən Altay oğlu - kapitan
Abduləzimov Əli Xanlar oğlu - tibb xidməti baş leytenantı
Hacıyev Pərviz Əskər oğlu - baş leytenant
İsmayılov Elmar Elnur oğlu - baş leytenant
Salahov Gündüz Vəliyəddin oğlu - baş leytenant
Yusifli Seymur Şəmistan oğlu - baş leytenant
Zeynalov Elvin Elman oğlu - baş leytenant
Quliyev İlkin Məstan oğlu - leytenant
Ağaliyev Kamran Məmmədağa oğlu - baş gizir
Seyidov Mirbağır Miryaqub oğlu - baş gizir
Ağayev Şəhram Hilal oğlu - gizir
Həşimov Sahil Nağı oğlu - gizir
Mahmudzadə Tural Nazim oğlu - gizir
Məhərrəmov Cahangir Çingiz oğlu - gizir
Hüseynov Vasif Vahid oğlu - baş çavuş
Məmmədov Vüqar Məmməd oğlu - əsgər
Musayev Rövşən Nail oğlu - əsgər
Rzayev Qafar Tofiq oğlu - əsgər

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Nəsirli Səməd Yaşılxan oğlu - baş leytenant
Saqizadə Məhəmməd Elman oğlu - baş leytenant
Abdunov Saleh Valeh oğlu - çavuş
Əcəmov Zaur Zabil oğlu - çavuş
Əliyev Vüsal Qurbanxan oğlu - çavuş
Həsənov Rusif Yusif oğlu - çavuş
Kərimov Alik Kərim oğlu - çavuş
Mirzəmətov Vadim Mihman oğlu - çavuş
Baxşiyev Elman Əlhüseyn oğlu - kiçik çavuş
Familzadə Əliheydər Ədalət oğlu - kiçik çavuş
Həziyev Pilağa Bəfalı oğlu - kiçik çavuş
Qəhrəman Elmir Elnur oğlu - kiçik çavuş
Musayev İsmət Cəlil oğlu - kiçik çavuş
Şabutov Şabut Sakit oğlu - kiçik çavuş
Paşayev Seymur Silduz oğlu - baş əsgər
Bayramov Ağabala Bəhram oğlu - əsgər
Əzizov Pərviz Qubad oğlu - əsgər
Muradov Zahid Məmməd oğlu - əsgər
Tahirov Çingiz Abdulla oğlu - əsgər
Tarıverdiyev Fariz Əfqan oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizat zəncirinin formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, eləcə də daxili bazarın qısamüddətli mənfi təsirlərə davamlığının artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyinin əsasında "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxs (bundan sonra - Agentlik) yaradılsın.

2. Dövlət Taxıl Fondu Agentliyin sərəncamına verilsin.

3. Müəyyən edilsin ki:

3.1. Agentlik dövlət və səfərbərlik ehtiyatlarının yaradılması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində tədbirlər görən publik hüquqi şəxsdir;

3.2. Agentliyin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir;

3.3. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti yaradılır;

3.4. Agentliyin İdarə Heyətinin sədrini və onun müavinlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

4. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Agentliyin strukturunun təsdiq edilməsi;

4.1.3. Agentliyin idarəetmə orqanının yaradılması, onun rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Agentliyin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. illik maliyyə hesabatlarının təsdiq edilməsi;

4.2.2. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

4.2.3. xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

4.3. Agentliyə:

4.3.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla əməyin ödənişi fondunun, işçilərin say həddinin və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiqi;

4.3.2. inkişaf istiqamətlərinin müəyyən edilməsi.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Agentliyin nizamnaməsinin və strukturunun layihəsini, o cümlədən nizamnamə fondunun miqdarı barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Agentliyin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının normativ hüquqi aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. Agentliyin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.4. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyinin balansında olan dövlət əmlakının, habelə Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin balansında olan və Agentliyin fəaliyyəti üçün zəruri olan dövlət əmlakının Agentliyin balansına verilməsini təmin etsin;

5.5. dövlət qeydiyyatına alındığı gündən Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli üçün bir ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi öz fəaliyyətini davam etdirsin.

7. Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyəti bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

## Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, aqrar sahədə dövlət dəstəyi tədbirlərinin davamı olaraq pay torpaqları üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi işlərinin başa çatdırılması, habelə istehsal təyinatlı torpaq mülkiyyətçilərinin (fermerlərin) əkin subsidiyalarından müntəzəm olaraq yararlanması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

1.1. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq rayon aqrar islahat komissiyalarının (yerli icra hakimiyyəti orqanlarının) qərarları ilə təsdiq edilmiş siyahılara əsasən ləğv edilmiş sovxoz və kolxozların özəlləşdirilən torpaqlarından pay almış, lakin bu torpaqlar üzərində mülkiyyət hüququ rəsmiləşdirilməmiş şəxslərin hüquqlarının onların müraciəti əsasında dövlət büdcəsinin vəsaiti hesabına daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını və dövlət reyestrindən çıxarışların, torpaq sahələrinin plan və ölçülərinin (bundan sonra - hüquqmüəyyənedici sənədlər) təqdim olunmasını "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsində nəzərdə tutulmuş müddətlərdə təmin etsin;

1.2. bu Fərmanın 2.1-ci bəndi nəzərə alınaraq, "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanının 2.5-ci bəndinin icrasının mərhələli şəkildə başa çatdırılması üçün zəruri tədbirlər görsün;

1.3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə Elektron kənd təsərrüfatı və Torpaqların elektron kadastr uçotu informasiya sistemləri arasında informasiya mübadiləsinin genişləndirilməsini təmin etmək üçün iki ay müddətində zəruri tədbirlər görüb bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. 2025-ci il yanvarın 1-dən etibarən əkin sahələrinin istifadəçilərinə aqrar sahədə subsidiyalar torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında veriləcəkdir;

2.2. bu Fərmanın 1.1-ci bəndinin icrası məqsədilə daşınmaz əmlakın dövlət reyestrində torpaq islahatı ilə əlaqədar tərtib olunan və müvafiq rayon aqrar islahat komissiyaları (yerli icra hakimiyyəti orqanları) tərəfindən təsdiq olunmuş hər bir vətəndaşa (ailəyə) düşən torpaq payının bölgüsünü əks etdirən kompleks yerquruluşu layihəsində göstərilən ölçüdə torpaq sahəsi üzərində hüquqlar qeydiyyata alınır.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) bu Fərmanın 1.1-ci bəndinin icrasını daha səmərəli həyata keçirmək üçün tələb olunan bütün xidmətlərin mobil "ASAN xidmət" nəqliyyat vasitələri ilə səyyar formada göstərilməsini 2021-ci il noyabrın 1-dən etibarən təşkil etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1.1-ci bəndinə əsasən hüquqmüəyyənedici sənədlərin verilməsi ilə bağlı göstərilən xidmətlərə görə xərclərin maliyyələşdirilməsi mexanizmini bir ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 4.1-ci bəndi nəzərə alınmaqla, bu Fərmanın 1.1-ci bəndinə əsasən hüquqmüəyyənedici sənədlərin verilməsi ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən xidmətlərə görə xərclərin maliyyələşdirilməsi üçün 3.500.000,0 (üç milyon beş yüz min) manat məbləğində vəsaiti 2022 - 2024-cü illər üzrə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

6. Aidiyyəti dövlət orqanları (qurumları) bu Fərmandan irəli gələn məsələlərin həllinə zəruri kömək göstərsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 oktyabr 2021-ci il*

# Milli Məclis Sədrinin başçılığı ilə parlament nümayəndə heyətinin Slovakiyaya rəsmi səfəri başlayıb





Oktyabrın 7-də Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Slovakiyaya rəsmi səfəri başlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə parlamentin komitə sədrləri Sadiq Qurbanov, Musa Quliyev, Zahid Oruc, Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov, deputatlardan Sədaqət Vəliyeva, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Oktyabrın 7-də Milli Məclis Sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini Bratislava şəhərinin Beynəlxalq Aeroportunda ölkəmizin Slovakiyadakı səfiri Rövşən Sadıqbəyli və bu ölkənin rəsmi şəxsləri qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclis Sədrinin Slovakiya Respublikasının Baş naziri, Milli Şuranın sədri, ölkənin xarici işlər naziri ilə görüşləri nəzərdə tutulub.

Səfər oktyabrın 9-da başa çatacaq.

# Milli Məclisdə ölkəmizdə koronavirus infeksiyası ilə bağlı mövcud vəziyyət, vaksinasiya mövzusunda dinləmə keçirilib



Oktyabrın 7-də Milli Məclisdə Səhiyyə komitəsi tərəfindən "Koronavirus infeksiyası (COVID-19) ilə bağlı ölkədəki mövcud vəziyyət, vaksinasiya və görülən digər tədbirlər barədə" dinləmə keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov iclası açaraq Azərbaycan parlamentində dinləmələrin keçirilməsinin artıq bir ənənə halı aldığını qeyd edib. Bildirib ki, iki ilə yaxındır dünyada tüğyan edən koronavirus pandemiyasının ilk günündən Prezident İlham Əliyevin şəxsi nəzarəti və tapşırığı ilə həyata keçirilən koronavirusla mübarizə tədbirləri sayəsində bu gün COVID-19 Azərbaycanda nəzarət altına alınıb. Eyni zamanda, pandemiya ilə bağlı gözlənilməz reallıqların bizi daim sayıq olmağa vadar etdiyini deyən komitə sədri elə bu dinləmənin də yeni problemlərin həlli yollarının, yaranan sualların cavablarının tapılması məqsədi daşıdığını bildirib.

Tədbirdə çıxış edən Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev COVID-19 pandemiyasının qlobal təsirlərindən, gətirdiyi yeni reallıqlardan danışıb. Adil Əliyev Azərbaycanın bu sınaqdan da Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə üzüağ çıxdığını vurğulayıb. O, pandemiyanın vurduğu ziyanın aradan qaldırılması üçün həyata keçirilən dəstək proqramlarını qeyd edib, Prezident İlham Əliyevin qlobal miqyasda koronavirusla mübarizəyə verdiyi töhfələrdən danışıb. Vitse-spiker Milli Məclisin pandemiyaya qarşı mübarizə sahəsindəki fəaliyyətini də qeyd edib. Pandemiya ilə mübarizə sahəsində Azərbaycanın müfəssəl səylərinin beynəlxalq səviyyədə qəbul edildiyini, 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırdığını vurğulayıb.

Azərbaycanda keçirilən vaksinasiya prosesinə toxunan Adil Əliyev çıxışının sonunda tibb işçilərinə, həkimlərə fədakar əməklərinə görə minnətdarlığını bildirib.

Dinləmələrdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Səhiyyə komitəsi sədrinin müavini Rəşad Mahmudov, Səhiyyə komitəsinin üzvləri Soltan Məmmədov, Kamilə Əliyeva, İlham Məmmədov, Kəmaləddin Qafarov, Müşfiq Məmmədli çıxış ediblər. Deputatlar Azərbaycanda koronavirusla mübarizə tədbirlərini yüksək dəyərləndiriblər, vaksinasiya səviyyəsinə görə MDB-də lider olmağımızı təqdir ediblər, COVID-19 pandemiyasının mövcud durumu və gələcək vəziyyəti ilə bağlı onları və seçicilərini narahat edən sualları səsləndiriblər. Deputatlar vaksinlərin keyfiyyət göstəriciləri, vaksinləşmənin növbəti mərhələləri, səhiyyənin müvafiq sahəsində mütəxəssis, infrastruktur təminatı, avadanlıqlarla, test və laboratoriyalarla təchizat, klinik protokolların və digər müvafiq standartların yenilənməsi kimi məsələlərlə bağlı mövcud vəziyyət və görüləcək işlərlə maraqlanıblar. Milli Məclisin deputatları, həmçinin koronavirus xəstələrinə ambulator xidmətin təşkili, onların xəstəxanaya yatırılması qaydası, evdə müalicə alanların dərmanlarla təminatı, uşaqların vaksinasiyası kimi məsələlərlə bağlı fikirlərini ifadə ediblər.

Dinləmələrə dəvət olunan səhiyyə nazirinin müavini Viktor Qasımov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti sədrinin vəzifələrini icra edən Vüqar Qurbanov, TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu departamentinin rəhbəri Yaqut Qarayeva, Səhiyyə Nazirliyinin baş infeksionist eksperti Təyyar Eyvazov Azərbaycanda koronavirus infeksiyası ilə bağlı mövcud vəziyyət, vaksinasiya və digər görülən tədbirlər barədə məlumat verib, deputatların suallarını cavablandırıb, qaldırılan məsələlərə aydınlıq gətiriblər. Bildirilib ki, koronavirus xəstələrinin müalicəsi, xəstəxanaya yatırılması kriteriyalarına yenidən baxılır, elektron resept sisteminin tətbiqi planlaşdırılır.

Fikir mübadiləsi şəraitində keçən tədbirdə dərmanların qeydiyyatı məsələsinin aktuallığı, koronavirus infeksiyası ilə mübarizədə koordinasiyanın və kommunikasiyanın təkmilləşdirilməsinin zəruriliyi qeyd edilib, dezinformasiyaların qarşısının alınması və maarifləndirmə işlərinin artırılmasının əhəmiyyəti vurğulanıb.

Tədbirin sonunda Milli Məclis Sədrinin müavini Adil Əliyev və Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov səmərəli fikir mübadiləsinə görə iştirakçılara təşəkkür ediblər. Bildirilib ki, bir çox məqamlara aydınlıq gətirilib, insanları narahat edən suallara cavab tapılıb və bu faydalı ənənə davam etdiriləcək.

Dinləmələrdə Milli Məclisin Səhiyyə komitəsinin üzvü Anatoliy Rafailov da iştirak edib.

# Siyasi partiya rəhbərlərinin növbəti görüşü Şuşada təşkil olunub





Oktyabrın 7-də Azərbaycanda fəaliyyət göstərən siyasi partiya rəhbərlərinin, habelə tanınmış politoloq və siyasi şərhçilərin Şuşa şəhərinə səfəri təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə baş tutmuş Şuşa səfərində ölkəmizdə fəaliyyət göstərən 43 siyasi partiyanın 55 nümayəndəsi ilə yanaşı, tanınmış politoloq və siyasi şərhçilər də təmsil olunub.

Şuşa səfəri məşhur Cıdır düzünün ziyarəti ilə başlayıb. Sonra iştirakçılar Vaqif türbəsini, Saatlı, Yuxarı və Aşağı Gövhərağa məscidlərini, Şuşa qalasını, Xan qızı Natəvanın evini, şəhərin mərkəzi meydanında Azərbaycanın mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəllərini, Bülbülün ev-muzeyini, həmçinin Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalandığı ərazini ziyarət ediblər. Səfər iştirakçıları Şuşada aparılan təmir-bərpa işləri ilə də yaxından tanış olublar.

Siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsi bilavasitə demokratik ənənələrin inkişafına xidmət edən təcrübədir. Fərqli səpkili təşəbbüs və layihələr vasitəsilə Azərbaycan iqtidarı dialoq məfhumunun aktuallığının qorunmasını təmin edir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Belə ki, ölkədə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti siyasi dialoq proseslərinin fəal iştirakçılarıdır. Görülən işlərin məntiqi nəticəsidir ki, iqtidar-müxalifət dialoqu artıq ölkəmizin gündəlik siyasi təcrübəsinə daxil olub və davamlı şəkildə inkişaf edir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşan siyasi dialoq çərçivəsində təşkil olunan bu cür səfərlər siyasətçilər arasında sağlam əməkdaşlıq münasibətlərinin formalaşması, eləcə də dayanıqlı dialoq ənənələrinin dərinləşməsinə xidmət edir.

Xatırladaq ki, partiya rəhbərlərinin ilk belə birgə səfəri bu il martın 17-də Ağdam şəhərinə təşkil olunub.

Təşviq edilən dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında çıxışında partiyaların inkişafını ümummilli məsələ kimi qeyd edərək demişdir: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

İqtidar-müxalifət dialoqu Azərbaycan dövlətçiliyinin qorunması və inkişafı üçün, eləcə də Azərbaycanın timsalında regionun dayanıqlı inkişafını təmin edən bir vasitədir. Məhz bu dialoqun vasitəsilə siyasi partiyaların fəaliyyəti üçün hüquqi və təşkilati əsaslar yaradılıb. Ölkəmizdə mövcud siyasi partiyaların sayı bilavasitə Azərbaycanda yaşanan siyasi plüralizmdən xəbər verir. Azərbaycanda demokratik münasibətlərin inkişafı naminə partiyalara hökumət tərəfindən ayrılan diqqət artır və şaxələnir.

Siyasi həmrəyliyin təcəssümü olan siyasi dialoqun ölkəmizdə mövcudluğu, eyni zamanda siyasi sabitliyi təmin edən əsas amillərdən biridir. Təqdirəlayiq haldır ki, hökumətin bu cür təşəbbüslərində alim, siyasi ekspert və şərhçilər də fəal iştirak edirlər. Bununla Azərbaycan hökuməti, əslində, müxtəlif sahələrin potensialının səfərbər olunmasını təmin edir. Belə ki, Şuşa şəhərinə təşkil olunmuş səfərdə siyasi partiya nümayəndələri ilə yanaşı, politoloq və siyasi şərhçilərin də iştirakı təsadüfi sayıla bilməz.

# Şeyxülislam Allahşükür Paşazadəyə Qazaxıstanın Avrasiya Milli Universitetinin fəxri professoru adı verilib



Qazaxıstan Respublikasında səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Nur-Sultan şəhərində Lev Qumilyov adına Avrasiya Milli Universitetində tələbə-müəllim heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, universitetin muzeyi ilə tanış olan Şeyxülislam A.Paşazadə xatirə kitabına ürək sözlərini yazıb.

Avrasiya Milli Universitetinin rektoru, tarix elmləri doktoru akademik, Qazaxıstan Milli Elmlər Akademiyasının vitse-prezidenti Yerlan Sıdıkov görüşdə Qafqaz Müsəlmanları İdarəsi sədrinin 40 ildən çox dövrü əhatə edən fəaliyyəti, dərin təcrübəsi, dünya səviyyəsində qazandığı hörmət və nüfuzu barədə məlumat verib.

Allahşükür Paşazadə universitetin professor-müəllim heyəti və tələbələri, eləcə də Qazaxıstan ictimaiyyətinin nümayəndələri qarşısında ölkəmizin şanlı Zəfərlə nəticələnən Qarabağın azadlığı uğrunda apardığı mübarizəyə, eləcə də Azərbaycan-Qazaxıstan əlaqələrinə həsr olunmuş mühazirə ilə çıxış edib.

Universitetin muzeyi ilə tanışlığın onda yüksək təəssürat oyatdığını söyləyən A.Paşazadə deyib: "Biz hamımız haqlı olaraq ortaq tariximizlə fəxr edə bilərik. Eyni zamanda, bizi bir-birimizə bağlayan kökləri heç vaxt unutmuruq. Bizim ən vacib vəzifəmiz ortaq dinimizi və dəyərlərimizi qorumaq, gələcək nəsillərə çatdırmaqdır".

QMİ sədri Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev və Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev tərəfindən ölkələrimiz arasında möhkəm əlaqələr yaradıldığını, hazırda bu siyasətin Azərbaycanın və Qazaxıstanın dövlət başçıları tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Türkdilli dövlətlər arasında birliyin möhkəmləndiyini söyləyən A.Paşazadə buna misal olaraq 44 günlük müharibə zamanı Türkiyənin Azərbaycana verdiyi dəstəkdən danışıb. "Qazaxıstanın da qardaşlıq dəstəyi bizim üçün çox vacib idi", - deyən QMİ sədri buna görə Qazaxıstan dövlətinə və qazax xalqına minnətdarlığını bildirib.

Sonra Allahşükür Paşazadə sualları cavablandırıb, Ermənistanın işğal dövründə şəhər və rayonlarımızı, kəndlərimizi, xalqımıza məxsus tarixi-mədəni abidələrimizi, məscidlərimizi vəhşicəsinə dağıtdığını, hazırda Azərbaycanın azad edilmiş ərazilərində bərpa-quruculuq işlərinin həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Qazaxıstan nümayəndə heyəti Azərbaycana səfəri zamanı Şuşa və Füzuli rayonlarında olub, Ermənistan tərəfindən törədilən vandalizmi öz gözləri ilə görüb.

Tədbirdə çıxış edən rektor Yerlan Sıdıkov Avrasiya Milli Universitetinin Elmi Şurasının qərarı ilə Şeyxülislam A.Paşazadənin bu nüfuzlu elm ocağının Fəxri professoru adına layiq görüldüyünü bildirib və ona diplomu təqdim edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Fəxri professoru olduğu bu universitetdə keçirdiyi görüşdən şərəf duyduğunu vurğulayan QMİ sədri gələcəkdə də Qazaxıstanın bu nüfuzlu ali məktəbini təkrar ziyarət etməkdən məmnun olacağını söyləyib.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



## Qalib KOMANDAN, qətiyyətli LİDER, qurucu PREZİDENT

### İlham Əliyevin Qarabağın dirçəlişi planı parlaq gələcək vəd edir

*Əvvəli 1-ci səh.*

İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yeni Qarabağın inkişaf planının tərkib hissəsidir.



### Sözünə, vədinə sadiq Lider

Əgər diqqət etsək görərik ki, Azərbaycan Prezidenti cəmi bir il ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb. Təkcə bir ildə Qarabağın yol-nəqliyyat infrastrukturu, enerji sektoru üzrə həyata keçirilən layihələri göstərmək yetərlidir.

Cəmi bir il öncə Vətən müharibəsi başlayanda İlham Əliyev xarici KİV-ə verdiyi müsahibələrdə qətiyyətlə, inamla deyirdi ki, işğaldan azad edilmiş torpaqlar yenidən qurulacaq, evlər, inzibati binalar, məktəblər tikiləcək. Yeni-yeni infrastrukturlar yaradılacaq. Beləliklə, ölkəmiz üçün yeni bir dövr başlanacaq. Bu yeni dövr böyük imkanlar açacaq, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində də müsbət meyillər güclənəcək. Azərbaycan beynəlxalq arenada öz rolunu daha da artıracaq.

İlham Əliyev əməli ilə bir daha göstərir ki, bu sözləri heç də söz xatirinə söyləməyib. Prezident kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev bu gün başladığı işlərlə Qarabağın əvvəlki şöhrətini özünə qaytaracağını dünyaya nümayiş etdirir. Hər kəs şahiddir ki, erməni vandallarının daşı daş üstündə qoymadığı torpaqlarımızda bir ildə hansı işlər görülüb və bu quruculuq işləri hər gün davam etdirilir.

Həyata keçirilən bütün proseslər təsdiq edir ki, yaxın illərdə Qarabağ yenidən cənnətməkana çevriləcək. İlham Əliyevin dediyi kimi, ölkəmizin gələcək inkişafı çox uğurlu olacaq. Bu günədək Azərbaycan Prezidentinin bəyan etdiyi bütün hədəflərə nail olunması bunu təsdiqləyir. İndi qarşıda duran vəzifə Qarabağın dirçəlişidir.

### Azərbaycan tam başqa bir mərhələnin astanasındadır

İqtisadi qüdrəti möhkəm olan dövlət bütün sahələrdə uğur qazanmağa qadirdir. Vətən müharibəsindən sonra qalib ölkə kimi qarşısında yeni perspektivlər açılan Azərbaycan indi tam başqa bir mərhələnin astanasındadır. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır.

Artıq bir ilə yaxındır ki, bu prosesə start verilib və reallıqlar göz önündədir. Azərbaycan öz iqtisadi qüdrəti hesabına həm dünyanı bürümüş qlobal pandemiya ilə mübarizə tədbirlərini davam etdirir, həm də işğaldan azad edilmiş torpaqlarda müasir infrastrukturların qurulması prosesini həyata keçirir.

Prezident İlham Əliyevin oktyabrın 3-4-də Bərdəyə, Tərtərə, Cəbrayıla səfərləri çərçivəsində açılışını etdiyi, təməlini qoyduğu sosial-iqtisadi obyektlər və digər infrastrukturlar Qarabağın dirçəlişi planının sürətli icrasının bariz nümunəsidir.

Dövlət başçısı 3 rayona səfəri zamanı bir çox müəssisələrin təməlqoyma mərasimlərində, açılışında iştirak etdi, qarşıda duran vəzifələri müəyyənləşdirdi və həm də Ermənistanı bir daha sülh müqaviləsini bağlamağa çağırdı.

Qalib Komandan kimi Bərdəyə, Tərtərə və Cəbrayıla səfəri çərçivəsində İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycan bayrağını ucaltdı.

Bu səfər çərçivəsində reallaşan bütün proseslər bir daha təsdiq etdi ki, İlham Əliyev işğaldan azad edilən torpaqlarımızdakı tikinti-quruculuq işlərinə ciddi nəzarət edir və mütəmadi olaraq verdiyi tapşırıqların icrası ilə maraqlanır, lazımi tövsiyələrini verir.

### Hər zaman xalqın yanında

Bu səfər həm də bir daha təsdiq etdi ki, İlham Əliyev hər zaman xalqın yanındadır, əhalinin sosial problemlərinin həlli istiqamətində çox mühüm işlər həyata keçirir. Regionlara səfəri zamanı vətəndaşlarla görüşərək səmimi söhbət etməsi, onların problemlərini dinləyib, hətta bəzilərinin yerindəcə həll edilməsi ilə bağlı tapşırıqlarını verməsi bunun bariz təcəssümüdür.

Dövlət başçısının Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxması və əvəzində inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olması, sahibi ilə səmimi söhbəti bunun real təsdiqidir.

İşğaldan azad edilən Cəbrayıl rayonunun sosial-iqtisadi inkişafı istiqamətində atılan addımlar da təqdirəlayiqdir. Təkcə bir səfər çərçivəsində dövlət başçısı çox mühüm iqtisadi obyektlərin təməlini qoydu. "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzi, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı, "Cəbrayıl" yarımstansiyası, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanası, akademik Mehdi Mehdizadə adına tam orta məktəbin tikintisi və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşının qoyulması, ilk növbədə, bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına, yerli istehsalın inkişafına böyük təkan verəcək, məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

Cəbrayıl rayonunda işğaldan əvvəl 52 min sakin yaşayırdısa, indi onların sayı 82 minə çatıb. Burada ən vacib amillərdən biri də şəhərdə yaşayacaq insanlara veriləcək suyun yeraltı mənbələrdən çəkilməsidir. Doğma şəhərlərinə uzun illərdən sonra yenidən ayaq basan rayon sakinlərinə rahat yaşamaları üçün hər cür şərait yaradılır.

Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsi 10,5 hektar ərazini əhatə edəcək və məhəllə mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 5 bina tikiləcək və bu binalara 200-ə yaxın ailə, yəni 654 sakin köçürüləcək. Məhəllədə 4, 5 və 6 mərtəbəli yaşayış, o cümlədən digər təyinatlı binalar olacaq. Bu məhəllədə və ümumiyyətlə, şəhərin mərkəzində tikiləcək binaların fasad və eyvanlarına tarixilikləri qorunmaqla, müasir görkəm veriləcək.

### İlham Əliyevdən sülh çağırışı, revanşistlərə isə ciddi xəbərdarlıq

Prezident Suqovuşanda və Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşdəki çıxışında bir daha yeni reallıqlardan danışdı və məğlub Ermənistanı sülh müqaviləsi bağlamağa çağırdı.

Regionda yeni dövrün başlandığını deyən İlham Əliyev bildirdi ki, bu dövrü müsbət istiqamətə yönləndirmək lazımdır. Hər halda Ermənistanla Azərbaycan arasındakı bu ədavət əbədi olmamalıdır. Yəni bütün bu dağıntılara, barbarlığa, vəhşiliyə baxmayaraq, gələcəyə baxılmalıdır. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir.

Amma hələ ki, Ermənistan sülh müqaviləsi bağlamaqdan boyun qaçırır. Azərbaycan isə bu prosesə tam hazırdı. İlham Əliyev hesab edir ki, bu məsələdə vasitəçiyə də ehtiyac yoxdur, iki ölkə məsələni həll edə bilər və bu da bölgədə uzunmüddətli sülhü təmin edər.

*Dövlət başçısı həmçinin Ermənistandakı revanşistlərə də sərt xəbərdarlığını ünvanladı: "Ermənistanda revanşist hisslərlə yaşayanlara müraciət edirəm - ağlınızı yığın başınıza. Dəmir yumruq buradadır, heç yerə getməyib, yerindədir. Bizi əsəbiləşdirməyin, özünüzü yaxşı aparın. Özünüzü yaxşı aparsanız, onda rahat yaşaya bilərsiniz. Yox, əgər bir daha bizə qarşı hər hansı bir təxribat, bəyanat, hərəkət olarsa, heç kimə baxmadan başınızı əzəcəyik. Heç kim də sizi müdafiə edə bilməz".*

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## ZƏFƏR gündəliyi

### 8 oktyabr 2020-ci il



Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tuturlar. Ölən və yaralananlar var.

Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini atəşə tutur.

Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açılır.

❖ ❖ ❖

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edir.

Ali Baş Komandanın müraciətləri, təbrikləri və ürək sözləri, həmçinin hərbi komandanlığın müraciətləri, əldə edilən qələbələr barədə məlumatlar şəxsi heyətə və mülki sakinlərə operativ şəkildə çatdırılır.

Təşviqat tədbirlərinin məqsədi Ordu-Xalq birliyinin daha da möhkəmləndirilməsi, Silahlı Qüvvələrimizin qüdrətinin və döyüşlərdəki uğurlarının işıqlandırılması, eləcə də savaşda rəşadət göstərən şəxsi heyətin qələbə əzminin təbliğ edilməsidir.



Şəxsi heyət və cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanan tədbirlər səyyar səsyayıcı stansiyalar vasitəsi ilə yayımlanan hərbi-vətənpərvərlik mahnı və marşları ilə müşayiət edilir.

❖ ❖ ❖

Gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissə qərargahına, istehkamlarına və silah-sursat anbarlarına artilleriya zərbələri endirilir.

❖ ❖ ❖

Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası artilleriya atəşi ilə məhv olunur.

Düşmənin hərbi kolonu darmadağın edilir.

❖ ❖ ❖




Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində erməni hərbçilərin qaçarkən tərk etdiyi zirehli texnikalar bölmələrimiz tərəfindən ələ keçirilir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutur.

Ordumuzun bölmələri tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülür.

❖ ❖ ❖

Azərbaycan Ordusunun bölmələri düşmənin zirehli texnikasını məhv etməyə davam edir.



❖ ❖ ❖

Füzuli rayonunun ərazilərinə ağ fosforlu tüstülü mərmi atılır. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanır.



Mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) aşkarlanır. Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

❖ ❖ ❖

Günün ikinci yarısından başlayaraq bütün cəbhə boyu gərgin döyüşlər davam edir.

Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırır və aktivliyinin qarşısını qətiyyətlə alır.

Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılır. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanır, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilir.



Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilir. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilir və yaralanır.

❖ ❖ ❖



Gün ərzində ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***





## "Dəmir yumruq" qələbənin, "dəmir iradə" dirçəlişin rəmzidir

*Əvvəli 1-ci səh.*

Bu ərpimiş təbliğat işğalçı dövlətin daxilində maraq doğursa da, onun hüdudlarından kənarda heç bir əhəmiyyət kəsb etmir. Çünki Azərbaycan müharibədə qələbəsini elan etdiyi gündən üzü bəri işğaldan azad olunmuş ərazilərdə yalnız quruculuq işlərinə, iqtisadi islahatların davamlı tətbiqinə köklənmişdir. Götürək Prezidentin bu günlər səfər etdiyi Cəbrayıl rayonunu.

Ərazisi qum-çınqıl, mişar daşı, kərpic gili, sement xammalı, gəc, əhəng və yəşəm kimi faydalı qazıntılarla zəngin olan Cəbrayılın işğaldan əvvəlki dövrdə iqtisadiyyatının əsas sahələri üzümçülük, tütünçülük, heyvandarlıq və taxılçılıq olmuş, rayonda qaramal kökəltmə, quşçuluq və baramaçılıq təsərrüfatları, xalçaçılıq müəssisəsi, üzüm emalı, çörək zavodları, kənd təsərrüfatı texnikasının təmiri müəssisələri fəaliyyət göstərmişdir. Bu gün isə Cəbrayılın bərpası, əhalinin yurduna qayıtması bütün dövlət qurumları qarşısında duran ən vacib məsələdir. Ona görə də nəinki Cəbrayılın, həmçinin işğaldan azad edilmiş digər rayonların tam bərpası üçün dövlət səviyyəsində nəhəng addımlar atılır.

O da aydındır ki, erməni işğalçılarının 30 il ərzində dağıtdıqları və məhv etdikləri əraziləri dirçəltmək üçün dəmir nizam-intizam və böyük iqtisadi potensial lazımdır. Dövlət başçısı qeyd edir ki, biz bütün gücləri və imkanları səfərbər etmişik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən qurub bərpa edək: "İşğal dövründə ermənilər bütün evləri, binaları kərpic-kərpic sökərək talançılıqla, soyğunçuluqla məşğul olurdular və bütün dünya buna göz yumurdu. Bunu görən beynəlxalq təşkilatlar, bunu görən Ermənistanın havadarları buna sadəcə olaraq biganə qalırdılar, göz yumurdular. Amma bu gün bütün dünya bunu görür".

Bu baxımdan "Araz Vadisi İqtisadi Zonası"nın təməlinin qoyulması sülhə sədaqətini nümayiş etdirən Azərbaycanla işğalçılıq niyyətlərindən hələ də əl çəkə bilməyən Ermənistanın hansı müxtəlif məqsədlərə qulluq etdiklərini aydın göstərir. Artıq "Araz Vadisinə" ilkin maliyyə vəsaiti ayrılmış, ilk investorlar müəyyən olunmuşdur. "KamAZ" şirkətinin vitse-prezidenti və Rusiyanın Tatarıstan Respublikasının Baş nazirinin müavini xüsusi olaraq Azərbaycana gəlmiş və Azərbaycan Prezidenti ilə birlikdə "KamAZ" regional xidmət mərkəzinin açılışında iştirak etmişdir.

Azərbaycan Prezidenti qətiyyətli iradə ilə işğaldan azad olunmuş rayonları ayağa qaldırmaq üçün mümkün olan bütün resursları hərəkətə gətirir, o cümlədən qonşu ölkələrə əməkdaşlıq platforması təklif edir: "Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır. Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni bizə bu format kifayətdir".

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# DİA-nın kafedra müdiri Türkiyədə keçirilən tədbirdə Azərbaycanın dövlət qulluğu sistemi haqqında təqdimat edib

Ankarada Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisində "Azərbaycan Respublikasının dövlət idarəçiliyi və dövlət qulluğu sistemi" adlı təqdimat keçirilib.





Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından (DİA) AZƏRTAC-a bildiriblər ki, Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin şöbə müdirləri, sektor müdirləri, layihə rəhbərləri, müxtəlif nazirliklərin nümayəndələrinin qatıldığı tədbirdə DİA-nın Türkiyəyə ezam olunmuş Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri Rəcəb Rəhimlinin məruzəsi dinlənilib.

Onlayn formatda keçirilən təqdimatda DİA-nın rektoru akademik Urxan Ələkbərov da iştirak edib.

Xatırladaq ki, 2021-ci il fevralın 19-da Ankarada Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın doqquzuncu iclasında imzalanan protokol çərçivəsində iki ölkənin dövlət kadrlarının hazırlanması və inkişafı sahəsində işbirliyinə dair razılıq əldə olunub. Protokola əlavə edilmiş Fəaliyyət Planında, həmçinin təhsil və insan resurslarının inkişafı ilə bağlı birgə fəaliyyətin qarşılıqlı münasibətlərə təkan verəcəyi vurğulanıb. Bu çərçivədə Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin rəhbərliyinin dövlət qulluqçularının təlim və inkişafı üçün vasitələrin tanıdılmasına yönəlik Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulub və bu istiqamətdə ilkin tədbirlər görülüb, yol xəritəsi müəyyənləşdirilib.

Qeyd edilən dövlətlərarası anlaşma çərçivəsində təşkil edilən tədbirdə təqdimatla çıxış edən dosent Rəcəb Rəhimli Türkiyə təmsilçilərinə ölkəmizin son illərdə iqtisadi, siyasi, humanitar, hərbi uğurları ilə bağlı məlumat verib. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir.

R.Rəhimli Azərbaycan Respublikasının dövlət qulluğu sistemi, son illərdə dövlət idarəçiliyi sahəsində gerçəkləşdirilən islahatlar barədə iştirakçılara məlumat verib. O, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar sayəsində ölkədə qlobal çağırışlara çevik reaksiya verə bilən dövlət qulluğu sisteminin formalaşdığını xüsusi vurğulayıb. R.Rəhimli əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət qulluqçularının hazırlanması və yenidən hazırlanması sisteminin formalaşdırılmasında vacib həlqə olduğuna diqqət çəkib. Vurğulanıb ki, daimi dəyişikliklər şəraitində dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinə dair tövsiyələrin işlənməsi sahəsində aparıcı elm, təhsil və informasiya mərkəzi kimi müəyyənləşdirilən DİA-nın statusu və fəaliyyət sahəsi Prezident İlham Əliyevin 2014 və 2017-ci illərə aid sərəncamları ilə xeyli genişləndirilib. Dövlət İdarəçilik Akademiyasında yeni tədris texnologiyalarının tətbiqi ilə ali təhsilin müxtəlif səviyyələrində və fərqli istiqamətlər üzrə ildə 3 mindən artıq dövlət qulluqçusu yenidən hazırlanır.

R.Rəhimli diqqətə çatdırıb ki, dövlət qulluqçularının əlavə təhsilinin təşkili və peşə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə rəhbər vəzifəli və digər dövlət qulluqçularının fasiləsiz təhsilinin təşkili çərçivəsində müxtəlif müddətli fokus qruplar üçün ən son yeniliklər əsasında daim yenilənən və distant formada təşkili mümkün olan təlimlər paketi formalaşdırılıb. Təlimlər fokus auditoriyasının xüsusiyyətləri nəzərə alınaraq distant, interaktiv formada, qısa və uzunmüddətli, tanınmış milli və xarici ekspertlərin iştirakı ilə keçirilməkdədir. Bildirilib ki, dövlət qulluqçularının hazırlanması prosesində Prezident İlham Əliyev tərəfindən ilk dəfə nəzəri cəhətdən əsaslandırılmış və tətbiq olunan, Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf sahəsində dünya liderliyini təmin edən və 44 günlük Vətən müharibəsi şəraitində də uğurla sınaqdan keçən yeni idarəetmə texnologiyalarının öyrənilməsinə xüsusi yer ayrılıb.

Toplantının sonunda tədbir iştirakçılarının sualları cavablandırılıb, gələcək birgə fəaliyyətə dair məsələlərlə bağlı fikir mübadiləsi aparılıb və perspektiv işbirliyi istiqamətləri müəyyənləşdirilib.

# Şəhid kapitana həsr olunmuş kitabın təqdimat mərasimi keçirilib









Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Hicran Hüseynovun müəllifi olduğu Vətən müharibəsi şəhidi kapitan Cəfərli Həmid Kərim oğlunun həyat və döyüş yoluna həsr edilən "Şəhid kapitan Həmid Cəfərli" kitabının təqdimat mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Sonra 44 günlük Vətən müharibəsindən, şəhid kapitan Həmid Cəfərlinin həyat və döyüş yolundan bəhs edən videoçarx təqdim edilib. Təqdimat mərasimində çıxış edənlər bu kitabın gələcək nəsillər üçün dəyərli bir vəsait olacağını vurğulayıblar.

Şəhidin kursant və zabit yoldaşları çıxış edərək kapitan Həmid Cəfərli ilə bağlı xatirələrini bölüşüb, onun döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlıqlarından danışıblar.

Məlumat verilib ki, kapitan Həmid Cəfərli Vətən müharibəsində göstərdiyi cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Şəhid Həmid Cəfərlinin anası Zemfira Cəfərli çıxış edərək oğlunun xatirəsini əziz tutduqlarına görə dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə, tədbir iştirakçılarına və kitabın müəllifi Hicran Hüseynova dərin minnətdarlığını bildirib. Şəhid anası Həmidin dörd övladını onun adına, qəhrəmanlığına layiq böyütməyə çalışacaqlarını vurğulayıb.

Mərasimin bədii hissəsində Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşları vətənpərvərliyi tərənnüm edən mahnılar oxuyublar.

# AzerGold

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## "AzerGold"un ilk Satış və mübadilə mərkəzi fəaliyyətə başlayıb





"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Mətbuat xidmətindən verilən məlumata görə, ölkəmizin zərgərlik sənayesinin inkişafı istiqamətində dövlət tərəfindən aparılan islahatlara dəstək məqsədilə cəmiyyət tərəfindən yerli qızıl xammalından istehsal edilən məhsulların ilk Satış və mübadilə mərkəzi istifadəyə verilib.

Bakı şəhəri Bülbül prospekti, 3 ünvanında yerləşən mərkəzdə səhmdar cəmiyyətin 2019-cu ildən etibarən yerli pərakəndə bazara təqdim etdiyi 5, 10, 20 qramlıq sikkə və külçələrlə yanaşı, çəkisi 1, 10 unsiya, 500 qram və 1 kiloqram olan yeni qızıl külçələr və fərqli dizaynlarda qızıl sikkələr satışa çıxarılıb.

Cari ildə hasil edilən qızılın bir hissəsinin pərakəndə satış üçün nəzərdə tutulan sikkə və külçələrin istehsalına yönləndirilməsi səhmdar cəmiyyətin yerli zərgərlik sənayesinin inkişafı, milli istehsalın stimullaşdırılması və ölkəmizin iqtisadi nüfuzunun artırılmasına töhfə verməsi məqsədi daşıyır.

Xatırladaq ki, külçə, sikkə və qranul şəklində qızılın və gümüşün satışının əlavə dəyər vergisindən, gömrük rüsumlarından, eləcə də idxal olunan qızıl və ondan hazırlanmış məhsulların aksiz vergisindən azad edilməsindən öncə sözügedən məhsullar maya dəyərinə kifayət qədər yüksək əlavələr edilməklə satılırdı. Bu dəyişikliklər nəticəsində "AzerGold"un rəsmi Satış və mübadilə mərkəzində şirkət tərəfindən istehsal edilən məhsullar qızılın dünya birjasındakı cari qiymətinə uyğun minimal marja ilə alıcılara təqdim edilir. Məhsulların maya dəyərinə əlavələrin əhəmiyyətli hissəsini isə istehsal xərcləri təşkil edir.

Əlavə olaraq, ilk dəfə mərkəzdə cəmiyyətin istehsal etdiyi sikkə və külçələrin qızılın dünya birjasındakı cari qiymətinə uyğun geri alışı - mübadiləsi təmin ediləcək. Bu da artıq məhsulların təkcə hədiyyə qismində deyil, istənilən zaman milli valyuta ilə mübadilə edilə bilən sərfəli investisiya aləti kimi seçiminə də imkan yaradacaq.

Tətbiqinə başlanılan yeni sistem bu sahədə ikinci əl bazarının "kölgə iqtisadiyyatı"ndan çıxarılmasına müsbət təsir göstərəcək. Bu da öz növbəsində yerli zərgərlik bazarının qaçaqmalçılıq və digər qanunsuz yollarla ölkəyə gətirilən saxta əyarlı məhsullardan azad olmasına imkan verəcək. Bununla yanaşı, "AzerGold"un ilk Satış və mübadilə mərkəzinin istifadəyə verilməsi Azərbaycan Zərgərlik Assosiasiyası ilə əməkdaşlıq şəraitində yerli zərgərlərin xam qızıla tələbatlarının ödənilməsində də mühüm rol oynayacaq.

Qeyd edək ki, 3 ildir yerli bazara təqdim edilən "AzerGold" məhsullarına alıcılar tərəfindən yüksək maraq və tələbatın olmasını nəzərə alaraq gələcəkdə ölkənin iri şəhər və rayonlarında da yeni mərkəzlərin istifadəyə verilməsi istisna edilmir.

# Beynəlxalq aləm

## Quterreş insanları aclıqdan xilas etməyə və efiopları barışdırmağa çağırdı

BMT-nin Baş katibi Antoniu Quterreşin dediyinə görə, Efiopiyada sülhün olmaması Afrika Buynuzu regionunda sabitliyin pozulmasına gətirib çıxara bilər.

BMT Təhlükəsizlik Şurasının Efiopiya üzrə iclasında çıxış edən Quterreş bildirib ki, hazırda Tıqray, Amhara və Afar şimal regionlarında əsl humanitar fəlakətdir. Eyni zamanda bu bölgələrə giriş hələ də məhduddur. BMT başçısı yeni hökuməti insanları aclıq ölümündən xilas etməyə və efiopları barışdırmağa çağırıb.

"Hələ avqust ayında mən Suranı xəbərdar etmişdim ki, Efiopiyada bizim gözlərimiz qarşısında humanitar fəlakət baş verir. O vaxtdan bəri böhran şiddətlənib. Hazırda Tıqrayda, Amharada və Afarda yeddi milyona yaxın insanın ərzaq və digər fövqəladə yardıma ehtiyac var", - deyə Quterreş bildirib. Onlardan beş milyonu döyüş əməliyyatları gedən Tıqrayda yaşayır və təxminən 400 min nəfər artıq aclıqdan əziyyət çəkir.

Tıqrayda bütün humanitar tələbatı təmin etmək üçün oraya hər gün ərzaqla, ən zəruri əşyalarla və yanacaqla dolu 100 yük maşını daxil edilməlidir.



BMT-nin bu regionda çalışan əməkdaşları insanların ağlasığmaz əzab-əziyyətləri, o cümlədən aclıqdan ölüm hallarının artdığını bildirirlər.

BMT başçısı şimal bölgələrinə yardım, nağd pul, avadanlıq və yanacağın şimal bölgələrinə çatdırılmasını məhdudlaşdırmamağa çağırıb.

## Pakistanda güclü zəlzələ baş verib



Pakistanın şərqində Belucistan əyalətində 5,9 bal gücündə zəlzələ baş verib. İlkin məlumata görə, 20 nəfər həlak olub, 6 uşaq da daxil olmaqla 300-dən artıq insan xəstəxanaya yerləşdirilib.

Pakistanın Milli Seysmik Monitorinq Mərkəzinin (NSMC) məlumatına görə, zəlzələnin episentri Harnay şəhərinin yaxınlığında olub. Təkanlar yerli vaxtla 03.20-də 15 kilometr dərinlikdə qeydə alınıb. Yeraltı təkanlar Quetta, Sibi, Pisin, Çaman və Belucistan əyalətinin bir sıra digər şəhərlərində hiss edilmişdir. Zəlzələ nəticəsində yaşayış evlərinə ziyan dəyib, bəzi rayonlarda torpaq sürüşməsi baş verib.

Fəlakət zonasında axtarış-xilasetmə işləri davam etdirilir.

## Əfqanıstanda məktəb və məscid partladılıb

Əfqanıstanın şərqində Xost əyalətində dini məktəbdə törədilmiş partlayış nəticəsində həlak olanların sayı artıb, 15-dən çox insan xəsarət alıb. Bu barədə "RİA Novosti" agentliyi təhlükəsizlik orqanlarındakı mənbəyə istinadən məlumat verir.




Əfqanıstanın müvəqqəti hökumətinin daxili işlər nazirliyinin məlumatına görə, dini məktəbdə əl qumbarası partladılmışdır.

Bundan əvvəl Kabildə məscidin yanında partlayış baş verib. Ən azı dörd nəfər yaralanıb. "TOLOnews" agentliyinin məlumatına görə, məsciddə informasiya və mədəniyyət nazirinin müavini Zəbiulla Mücahidin anası ilə vida mərasimi keçirilən zaman binanın girişində bomba partlayıb.

Partlayışdan sonra "Taliban"ın üzvləri ilə "Xorasanda İslam Dövləti" qruplaşmasının yaraqlıları arasında atışma başlanıb.

## Baydenin reytinqi rekord səviyyəyə enib

ABŞ Prezidenti Co Baydenin reytinqi onun vəzifədə olduğu müddətdə ən aşağı səviyyəyə düşüb. Sorğunun nəticələrinə görə, respondentlərin 53 faizi Prezidentin işini mənfi qiymətləndirib, 38 faiz isə öz razılıqlarını bildirib. Üç həftə əvvəl analoji sorğuda iştirak edənlərin 42 faizi Amerika liderini dəstəkləyirdi, 50 faizi isə onun fəaliyyətini mənfi qiymətləndirirdi.



Bununla yanaşı, özünü Respublika Partiyasına aid edən respondentlərin 94 faizi, demokratların isə yalnız 10 faizi Baydenə mənfi qiymət veriblər. "Bitərəf" amerikalıların 60 faizi prezidentin fəaliyyətini mənfi, 32 faizi müsbət qiymətləndirirlər.

Bayden siyasətinin ayrı-ayrı istiqamətlərinə gəlincə, ABŞ vətəndaşlarında ən çox narazılığı immiqrant siyasəti və Meksika ilə sərhəddəki vəziyyət yaradır. ABŞ-ın Əfqanıstandakı fəaliyyətini rəyi soruşulanların 28 faizi dəstəkləyir, 50 faiz isə hesab edir ki, amerikalı hərbçilər bu ölkədə qalmalı idi.

***Hazırladı:***
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## CAREC İnstitutu: “Azərbaycan - iqtisadiyyatı pandemiya tənəzzülündən sürətlə çıxan ölkədir”

İki ilə yaxındır ki, dünya koronavirus pandemiyasının yaratdığı fəsadlardan əziyyət çəkir. COVID insan tələfatı ilə yanaşı, dünya əhalisinin yoxsulluq və sosial problemlər çəngində yaşamasına da səbəb olub. Hazırda virus bir qədər səngisə də, öz mənfi təsirini göstərməkdə davam edir.

Pandemiyanın dünya iqtisadiyyatına vurduğu ziyan nəticəsində beynəlxalq ticarət əlaqələrində də ciddi qırılmalar baş verib. Bu üzdən əksər ölkələrdə bir çox müəssisələr fəaliyyətini dayandırmış, istehsal və ixrac azalmışdır. Yaşanan iqtisadi problemlər sosial problemləri də gərginləşdirmişdir. Məsələn, dünyanın ən böyük iqtisadiyyatına malik ABŞ-da 20 milyondan çox insan sosial müavinət üçün dövlətə müraciət etməyə məcbur olmuşdur.

Təbii ki, bütün bu problemlər az və ya çox dərəcədə Azərbaycandan da yan keçməmişdir. Bununla belə, zamanında aparılan islahatlar və qeyri-neft-qaz sektorunun inkişafı, sahibkarlığa verilən dəstək ölkəmizə pandemiya dövründə iqtisadi itkilərimizi minimum səviyyəyə endirməyə imkan vermişdir. Hətta bir çox sahələrdə iqtisadi artım da əldə edilmişdir. Qeyri-neft-qaz sənayesində və kənd təsərrüfatında iqtisadi artım daha yüksək olmuşdur.

Ölkəmizin iqtisadi sahədə əldə etdiyi bu nailiyyətlər dünyanın bir çox beynəlxalq maliyyə və reytinq təşkilatları tərəfindən də araşdırılaraq yüksək qiymətləndirilir. Növbəti belə təhlil və yüksək qiymət Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) institutu tərəfindən açıqlanıb. Həmin institutun hesabatında Azərbaycan COVID-19 pandemiyasından sonra ən yüksək bərpa prosesi keçən ölkələrdən biri kimi xarakterizə edilir.

Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq institutu rüblük iqtisadi monitorinqini təqdim edib. CAREC regionuna daxil edilən 11 ölkə üzrə araşdırmada ümumi daxili məhsul istehsalı, fiskal və pul siyasəti kimi faktorlar nəzərə alınaraq ən son iqtisadi inkişaf komponentləri təhlil edilmiş və COVID-19 pandemiyasından bərpa prosesinin region üzrə göstəriciləri təqdim olunmuşdur.

Bildirilir ki, COVID-19 pandemiyasının səbəb olduğu iqtisadi tənəzzül öz təsirini itirməyə başlamış və iqtisadiyyatların bərpası 2021-ci ilin statistik göstəricilərində öz əksini tapmışdır. Belə ki, 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin birinci və ikinci rübündə ÜDM istehsalının sabit qiymətində uyğun olaraq 2,8 və 2,2 faiz artım qeydə alınmışdır. Qeyd olunur ki, ötən iki il ərzində Azərbaycan, Çin və Özbəkistan ən yüksək real ÜDM-ə çatan ölkələr olmuşdur. Bu göstəricilər digər CAREC regionu ölkələri üçün dəyişkən olmasına baxmayaraq, qeyd olunan 3 ölkədə cari ilin birinci və ikinci rübündə müvafiq olaraq mövsümi dəyişikliklər edilərək rüblük müsbət artım əldə edilmişdir. Region üzrə iqtisadi bərpa prosesi, əsasən, kənd təsərrüfatı, emal sənayesi və xidmət sektorlarında daha sürətli olmuşdur.

Hesabatda başqa bir fakt da açıqlanıb: son 4 ilin ən yüksək real ÜDM artımı 2021-ci ilin ikinci rübündə Azərbaycan, Çin, Gürcüstan, Qazaxıstan və Qırğızıstanda əldə edilmişdir.

Məlumdur ki, pandemiya zamanı bir çox ölkələrin, o cümlədən CAREC regionu ölkələrinin iqtisadiyyatı inflyasiya ilə üzləşmişlər. 2021-ci ilin yanvar və iyul aylarında Azərbaycanda inflyasiya 3,3 faizdən 5,2, Gürcüstanda 2,8 faizdən 11,9, Qazaxıstanda 7,4 faizdən 8,4, Qırğızıstanda 10,1 faizdən 14,6 və Monqolustanda 2,4 faizdən 7,4 faizə qədər artmışdır. Göründüyü kimi, CAREC regionu üzrə inflyasiyanın aşağı səviyyəsi Azərbaycanda müşahidə edilmişdir.

İnflyasiyaya səbəb olan amillərdən biri ərzaq təchizat zəncirinin pandemiyaya görə mənfi təsirə məruz qalması və ərzağın 2020-ci ilin əvvəllərində bahalaşması olmuşdur. Halbuki bu təsir 2020-ci ilin sonuncu və 2021-ci ilin ikinci rübləri ərzində azalmışdır. Belə ki, ərzaq sektorunda olan inflyasiya Gürcüstanda 6,1 faizdən 5, Pakistanda 15 faizdən 13,7, Qazaxıstanda 10,9 faizdən 9,9, Tacikistanda 12,6 faizdən 9,4 və Özbəkistanda 16,2 faizdən 14,2 faizə enmişdir. Lakin bu göstərici Azərbaycanda müvafiq dövrdə 4,9 faiz ətrafında qərarlaşmışdır. Bununla ərzaq qiymətlərinin inflyasiyasında Azərbaycan ən aşağı həddə malik ölkələrdən biri olmuşdur.

Son olaraq, regionda 2021-ci ilin iyun ayında ixrac üzrə statistik göstəricilər ötən ilin müvafiq dövrü ilə müqayisədə 31 faiz artmışdır. Həmin hesabata əsasən, regionda ixrac göstəricilərini artıran ölkələrdən biri də Azərbaycan olmuşdur.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

## “Azeka BM” MMC-yə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib

Ölkəmizdə həyata keçirilən uğurlu sənayeləşmə siyasətinə uyğun olaraq, Sumqayıt Kimya Sənaye Parkında yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, sənaye parkına investorların cəlb olunması işləri davam etdirilir.

Bu işlərin davamı olaraq Sumqayıt Kimya Sənaye Parkında yeni rezident - “Azeka BM” MMC qeydiyyata alınıb.

“Azeka BM” MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının ərazisində Çin və Türkiyənin qabaqcıl texnologiyalarının tətbiqi ilə boya sənayesində və məişətdə istifadə olunan bir çox məhsulların istehsalı zamanı xammal olaraq kimi istifadə edilən üyüdülmüş kalsit (kalsium karbonat) istehsal edəcək zavod inşa olunacaq. Layihənin investisiya dəyəri təqribən 7 mln. manatdır.

İllik istehsal gücü 36 min ton təşkil edəcək müəssisədə 40 daimi iş yeri yaradılacaq.

Müəssisənin məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə xarici ölkələrə də ixrac ediləcək.

## Almaniyada keçirilən forumda Azərbaycanın enerji keçidi sahəsində gördüyü işlərdən danışılıb

Almaniyanın paytaxtı Berlin şəhərində hibrid formatda 2-ci Xəzər Avropa Forumu keçirilib.

Tədbirdə Xəzər hövzəsi və Mərkəzi Asiya ölkələrinin, həmçinin Almaniyanın hökumət nümayəndələrinin, beynəlxalq təşkilatların və şirkətlərin yüksəksəviyyəli rəhbər şəxsləri iştirak edib. Azərbaycanı bu forumda energetika nazirinin müavini Elnur Soltanov təmsil edib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, “Enerji və davamlılıq: karbohidrogen resurslarından iqlim cəhətdən neytral iqtisadiyyata gedən yol” adlı sessiyaya onlayn formatda qatılan nazir müavini “Beynəlxalq enerji aləmində Azərbaycan - gələcəyə baxış” mövzusunda çıxış edib.

Elnur Soltanov bildirib ki, Azərbaycanın müstəqilliyinin 30-cu ilində ölkə iqtisadiyyatının yüksələn xətlə inkişafına digər sahələrlə yanaşı, energetika sahəsi, xüsusilə də neft-qaz sahəsi öz töhfəsini verib. Ölkənin nəhəng enerji layihəsi sayılan “Cənub qaz dəhlizi” 2020-ci ilin sonunda uğurla yekunlaşıb və bu layihə yaxın regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi rol oynayır. Nazir müavini həmçinin ölkəmizdə enerji keçidi sahəsində görülən işlərdən bəhs edib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Prezident İlham Əliyevin tapşırığı ilə “Yaşıl enerji zonası”nın yaradılması ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumat verib. Bu istiqamətdə xarici investorların cəlbi perspektivlərini diqqətə çatdırıb.

Forum Xəzər regionunda logistika və infrastruktur, enerji və davamlılıq, rəqəmsal iqtisadiyyat, turizm, kənd təsərrüfatı, səhiyyə iqtisadiyyatı və digər mövzular üzrə sessiyalarla işini davam etdirib.

Qeyd edək ki, Xəzər Avropa Forumunun əsas məqsədi Avropa və Xəzər regionu arasında iqtisadi əlaqələrin təşviqindən ibarətdir.

## Aqrar sığortaya həsr olunmuş onlayn beynəlxalq konfrans keçirilib

Dünyanın aqrar sığorta sahəsində ixtisaslaşmış məşhur “Agro insurence” resursunun təşkilatçılığı ilə dünyada aqrar sığortanın inkişafı və yeni meyillərə həsr edilmiş onlayn konfrans keçirilib.



Konfransın məqsədi Avropa və Asiyanın aqrar sığorta bazarlarının iştirakçıları arasında dialoqu fəallaşdırmaq, aqrar sığorta sahəsində, o cümlədlən inkişaf edən bazarlarla bağlı aktual məsələlərin müzakirəsi idi.

Azərbaycanda yeni fəaliyyətə başlayan Aqrar Sığorta Fondu da ilk dəfə olaraq bu beynəlxalq tədbirə dəvət edilib. Konfransda Azərbaycanı Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədr müavini Firdovsi Ağaşirinov təmsil edib.

Firdovsi Ağaşirinov tədbirdə “Azərbaycanda aqrar sığortanın inkişafı: İmkanlar və perspektivlər” mövzusunda təqdimatla çıxış edib. Təqdimatda ölkədə aqrar sığortanın tətbiqi, sığorta şərtləri, prinsipləri, əhatə etdiyi risklər, predmetlər və gözlənilən dəyişikliklər barədə geniş məlumat verilib.

Konfransda Avropa və Asiyanın aqrar sığorta bazarları təhlil edilib, inkişaf etməkdə olan bazarlardakı imkanlar və problemlər açıqlanıb. Tədbirdə sığorta bazarının bütün seqmentləri - sığorta və təkrar sığorta şirkətləri, sığorta vasitəçiləri, brokerlər, eləcə də müxtəlif ölkələrin hökumət və rəsmi qurumlarının nümayəndələri iştirak edib. Onlayn konfransa maraqlı tərəflər qismində banklar və lizinq şirkətləri və fermerlər üçün avadanlıq istehsal edən şirkətlərin təmsilçiləri də qatılıb.

Tədbir iştirakçıları arasında “Munich Re” (Almaniya), “Alliance Se” (Almaniya), “Polish Re” (Polşa), “Q-Re” (Qətər-İsveçrə), “Swiss Re” (İsveçrə), “Hannover Re” (Almaniya), “AXA XL” (İsveçrə), “Liberty Mutual Re” (Fransa), “Deutsche Ruckversicherung AG” (Almaniya) kimi iri təkrar sığorta şirkətləri, eləcə də “Aldaqi” (Gürcüstan), “TUW TUW” (Polşa), “Ubezpieczenia Pocztowe” (Polşa), “TUZ Ubezpieczenia” (Polşa), “İNQO” (Ukraina), “Vereinigte Hagelversicherung” (Almaniya), “Österreichische Hagelversicherung” (Almaniya), “Schweizer Hagel” (İsveçrə) sığorta şirkətləri, Almaniya, Gürcüstan, Rusiya, Avstraliya və sair ölkələrin sığorta vasitəçiləri qatılıb.

Toplantıda Gürcüstanın Kənd Təsərrüfatı Tədqiqatları və İnkişaf Agentiliyi (ARDA), Aqrar sığorta məqsədləri ilə Yerin müşahidəsi təşkilatı (EO4I: GeoVille, Vito, CGI) (Avstriya-Belçika-Niderland, İtaliya), Türkiyə, Avstraliya və Yunanıstanın nümayəndələri də qatılıb.

Onlayn konfransda iqlim dəyişikliklərinin kənd təsərrüfatı istehsalına təsiri, aqrar sahənin ehtiyacları baxımından iqlim müşahidələri, quraqlıq riski və ondan sığorta, indeks əsaslı aqrar sığorta, eləcə də aqrar sığorta sahəsində Hindistan, Filippin və Gürcüstan təcrübələri barədə təqdimatlar olub.

Tədbirdə örüşlərin sığortası, aqrar sığortada itkilərin optimallaşdırılması və sahələrin monitorinqi üçün rəqəmsal alətlərdən istifadə, bu sahədə İsveçrə təcrübəsi ilə bağlı təqdimatlar olub.

## 8 ayda qeyri-neft məhsullarının ixracı 37 faizdən çox artıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təqdim etdiyi “İxrac icmalı”nın sentyabr sayında bu ilin 8 ayı ərzində qeyri-neft sektoru üzrə ixracın 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 37,1 faiz artdığı göstərilmişdir.

İcmalda bildirilir ki, cari hesabat dövründə Azərbaycanın ixrac etdiyi məhsulların dəyəri 13 milyard, o cümlədən qeyri-neft məhsullarının dəyəri 1,6 milyard dollar olmuşdur. Qeyri-neft məhsulları üzrə ixracın dəyəri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 429 milyon dollar artmışdır.

İcmalda həmçinin qeyd olunur ki, 8 ay ərzində qeyri-neft məhsulları ixracında meyvə-tərəvəz dəyəri 364,7 milyon dollar təşkil etməklə əsas paya malik olmuşdur. Qara metallar və onlardan hazırlanan məmulatlarda 1,5, pambıq iplikdə 3,1, şəkərdə 2,2 dəfə, kimya sənayesi məhsullarında 68, pambıq lifində 88,5, alüminium və ondan hazırlanan məmulatlarda 45 faiz artım qeydə alınmışdır.

Qeyd edilən müddət ərzində ixrac edilən qeyri-neft məhsullarının siyahısında pambıq mahlıcı (143,8 milyon dollarlıq) birinci, qızıl (140,1 milyon dollarlıq) ikinci, pomidor (tomat) (128,2 milyon dollarlıq) isə üçüncü yerdə qərarlaşmışlar.

Bu dövrdə Rusiyaya 522,3 milyon, Türkiyəyə 407,3 milyon, İsveçrəyə 154,9 milyon dollar, Gürcüstana 109,5 milyon dollar və ABŞ-a 48 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal və məhsullar ixrac olunmuşdur.



“İxrac icmalı”nda normallaşma prosesinin davam etdiyi dövrdə avqust ayı üzrə ixracın dəyərinin 1,6 milyard dollar olduğu göstərilir. Qeyri-neft sektoru üzrə ixracda artım 95,3 faiz təşkil etməklə dəyəri 230,4 milyon dollar olmuşdur. Cari ilin avqust ayı ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri ötən ilin müvafiq ayı ilə müqayisədə 53,1 faiz artaraq 38,3 milyon, qeyri-yeyinti məhsulları üzrə 106,6 faiz artaraq 192,1 milyon dollar təşkil etmişdir.

Avqust ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya 54,4 milyon dollarlıqla birinci, Türkiyə 48 milyon dollarlıqla ikinci, İsveçrə 25,5 milyon dollarlıqla üçüncü olmuşdur. Həmin ay ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr birinci, qızıl ikinci və karbamid üçüncü yerdə qeydə alınmışlar.

2021-ci ilin yanvar-avqust aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın 31 ölkəsinə 30,8 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 91 faizi həcmində olmuşdur. Avqust ayında isə “Azərkosmos” ASC tərəfindən dünyanın 22 ölkəsinə 2,2 milyon dollarlıq ixrac xidməti göstərilmişdir.

Bu ilin yanvar-avqust ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə 9,6 milyon dollarlıqla ABŞ, 6,6 milyon dollarlıqla Birləşmiş Krallıq, 6,4 milyon dollarlıqla Fransa, 3,7 milyon dollarlıqla Malayziya və 1,1 milyon dollarlıqla BƏƏ qərarlaşmışdır.

İcmalda həmçinin məlumat verilir ki, bu ilin 8 ayı ərzində Azexport.az portalına 324,4 milyon dollar dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2021-ci ilin avqust ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 40,8 milyon dollar civarındadır. Həmin ay Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, xurma, nar, toyuq yumurtası, fındıq ləpəsi, biyan kökü və s. mallar üzrə daxil olmuşdur.

“İxrac icmalı”nda həmçinin göstərilib ki, ötən ay “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft məhsulları ixracının dəyəri 16,7 milyon dollara çatmışdır.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

## Pambığın zəhməti kimi qazancı da çoxdur

### Goranboylular bu il də bol məhsul yetişdirmişlər



Əvvəllər də pambıqçılıqda ad çıxarmış Goranboyda son illər bu gəlirli sahəyə maraq artmışdır. 6 ildir tarlalarda bol məhsul yetişdirən rayonun fermerləri həm ölkənin dirçəlməkdə olan yüngül sənayesini xammalla təmin edir, həm də çoxlu qazanc əldə edirlər.

Keçən il rayon üzrə sahələrdən 9,7 min ton pambıq toplanmışdır. Hər hektarın məhsuldarlığı 34,6 sentnerə yüksəlmişdir ki, bu da əvvəlki illə müqayisədə xeyli çoxdur. Onu da qeyd edək ki, ötən mövsüm Goranboyda pambığın 93 faizi kombaynla, qalanı əl ilə toplanmışdı.

Bu il isə rayonda 2647 hektarda pambıq əkilib. Pambıq əkini ilə rayonda əsasən 3 şirkət - “MKT İstehsal Kommersiya”, “Azərpambıq” və “Goran-Cotton” MMC-lər məşğul olur. Bu il havaların əlverişli keçməsi və aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi nəticəsində sahələrdə bol məhsul yetişmişdir. Oktyabrın 4-dək rayon üzrə 995 ton pambıq toplanmışdır.

“Azərpambıq” MMC həmişə olduğu kimi, bu il də yığımda irəlidə gedir. MMC-dən verilən məlumata görə, builki məhsuldarlıq əvvəlki illərə nisbətən xeyli çox olacaq. Artıq indidən məhsuldarlıq 25 sentnerə çatıb. Hətta elə kəndlər var ki, orada məhsuldarlıq daha yüksəkdir. Məsələn, Qırıxlı və Xanqərvənd kəndlərində bu göstərici 30 sentnerdir. Yığım isə davam edir.

Öyrəndik ki, builki uğurun əsas səbəbi pambıqçılıqda intensiv texnologiylara üstünlük verilməsidir. Belə ki, əsas diqqət daha az sahədə daha çox məhsul yetişdirilməsinə, həm də məhsulun maya dəyərinin aşağı salınmasına yönəldilib. Məhsuldarlığın artmasına nail olmaq üçün isə toxumun keyfiyyətinə həssaslıqla yanaşılıb.

“Goran-Cotton” MMC sahələrdə yetişdirilmiş pambığı vaxtında və itkisiz toplamaq üçün bütün qüvvələri səfərbərliyə alıb. Hazırda yığıma kombaynla yanaşı, 350 nəfərədək işçi qüvvəsi cəlb olunub. Şirkətin pambıq qəbulu məntəqəsi rayonun Dəliməmmədli şəhərində yerləşir. Burada pambıq qəbulu, qurutma, emal, presləmə, hazır məhsul anbarları var. Məntəqənin sex və sahələrində hələ mövsüm başlamamışdan əvvəl hazırlıq işləri aparılmışdır. 60 nəfərədək işçinin hamısı, demək olar, peşəkardır. Qəbul olunmuş pambığın keyfiyyətlə emal olunmasına məsuliyyətlə yanaşılır. Burada kipləşdirilmiş pambıq əsasən xarici ölkələrə göndərilir.

Rayonda böyük pambıq istehsalçılarından biri də “MKT İstehsal Kommersiya” MMC-dir. Əvvəlki illərdə olduğu kimi, bu il də kollektiv tarlalarda bol məhsul yetişdirib. 23 kənddə 250 hektardan çox pambıq əkən şirkətin pambıqçılıq üçün lazım olan hər cür texnikası var. Şumdan tutmuş pambıq yığımınadək lazım olan bütün texnika şirkətin özünündür. Hazırda sahələrdə 7 kombayn işləyir.

Rayonda, demək olar ki, bütün kəndlərdə pambıq əkilir. Qızılhacılı, Xanqərvənd, Borsunlu, Qırıxlı, Yeni Yol kəndlərində, Goranboy şəhəri ətrafında bol məhsul yetişdirilib. Ümumilikdə rayon üzrə 600 nəfərə yaxın işçi qüvvəsi pambıq yığımında iştirak edir. Bundan başqa, sahələrə lazımi qədər kombayn da çıxarılıb.

Məlum olduğu kimi, əl ilə əsasən kiçik sahələrin pambığı yığılır. Yığımda iştirak edən kənd sakinlərinin əməkhaqqı günün sonunda elə sahədəcə verilir. Pambıq istehsalında verilən subsidiyanın artırılması insanlarda stimul yaradıb və hamı çalışır ki, yığımda iştirak etsin. Elə kənd sakinləri var ki, gün ərzində 250 kiloqrama yaxın pambıq yığır ki, bu da ailə büdcəsinə xeyli gəlir gətirir. Elə bu səbəbdən digər rayonlarda olduğu kimi, Goranboyda da pambıqçılığa ildən-ilə maraq artır. Məsələn, Quşçular kəndindən fermer Rauf Həmidov bu il 45, Xan Qərvənd kəndindən fermer Hafiz Əkbərov 5, Qızılhacılı qəsəbəsindən fermer Elşən Novruzov 111 hektarda pambıq əkib.

Hazırda Goranboyda pambıq yığımının qızğın çağıdır. İnsanlar minbir zəhmətlə yetişdirdikləri məhsulu vaxtında və itkisiz toplamaq üçün yorulmaq bilmədən çalışırlar. Bilirlər ki, çəkdikləri əziyyət öz bəhrəsini verəcək və onlar daha çox qazanc əldə edəcəklər.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzinə 19 minə yaxın müraciət daxil olub

Bu ilin yanvar-oktyabr ayları ərzində İqtisadiyyat Nazirliyinin 195-2 Çağrı Mərkəzinə 18729 müraciət daxil olub.

Müraciətlər əsasən, istehlakçı hüquqları, sahibkarlıq fəaliyyəti, investisiya təşviqi, lisenziyalaşdırma, güzəştli kreditlərin verilməsi və nazirliyin fəaliyyət istiqamətlərinə dair digər məsələlərlə bağlı olub.

Daxil olmuş müraciətlər operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən müraciətlər üzrə İqtisadiyyat Nazirliyinin aidiyyəti strukturları tərəfindən müvafiq tədbirlər görülüb və müraciət edən şəxslərə cavab verilib.

## İstixanalarda fitosanitar monitorinqlər davam edir

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ölkə ərazisində karantin obyekti olan zərərli orqanizmlərin yayılmasının qarşısının alınması və mübarizə tədbirlərinin təşkili məqsədilə fitosanitar monitorinqləri davam etdirir.

Agentliyin fitosanitar müfəttişləri tərəfindən Xaçmaz regional bölməsinin inzibati ərazi vahidinə daxil olan rayonlarda yerləşən pomidor istixanalarında zərərli orqanizmlərin aşkar edilməsi və onlara qarşı mübarizə tədbirlərinin aparılması məqsədilə keçirilən monitorinqlər zamanı bitkilərin becərilməsi, həmçinin təhlükəsizlik qaydalarına əməl olunması barədə sahibkarlara müvafiq tövsiyələr verilib.

Sonda sahibkarları maraqlandıran suallar cavablandırılıb. Eyni zamanda müayinələrin aparılması üçün məhsullardan götürülən nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarına təqdim olunub.

## Biz birlikdə güclüyük!

# Koronavirus çətin ki, daha geniş yayıla



### Bu, insanların vaksinasiya prosesində fəallığından, məsuliyyət daşıdıqlarını unutmamalarından da asılıdır

Yeni növ koronavirus infeksiyasının pandemiyaya çevrilərək dünyada "at oynatması"nın deyəsən ömrünə az qalıb. Son günlərin bu sahədəki statistik göstəriciləri də belə deməyə əsas verir. Doğrudur, dünyanın inkişaf etmiş bəzi ölkələrində hələ pandemiyanı "cilovlamaq" mümkün olmayıb. Lakin onun öldürücülük xarakteri qismən də olsa azalıb. İnfeksionistlər, virusoloqlar da bunun peyvəndlə əlaqədar olduğunu bildirirlər.

Koronavirus əleyhinə peyvəndlərin hazırlanması sahəsində ilklərdən biri bu patogenin zamanla mütləq şəkildə zəifləyəcəyini iddia edir.

Oksford Universiteti və "AstraZeneca" şirkətində peyvəndi yaradan alim hesab edir ki, koronavirus çətin ki, daha ölümcül bir varianta çevrilsin. Zaman keçdikcə bu patogen soyuqdəyməyə bənzər nəyəsə səbəb olacaq. Professor Sara Gilbert ehtimal edir ki, immunitetin təsirindən qaçmaq üçün virusun gedə biləcəyi yerlər o qədər də çox deyil. Lakin o, yenə də yoluxucu olaraq qalacaq: "...Əhali arasında yayıldıqca viruslar zaman keçdikcə daha az virulent olur. COVID-19-un bir şəkildə daha aqressiv olacağını düşünmək üçün heç bir səbəb yoxdur. Koronavirusa səbəb olan SARS-CoV-2 patogeni zamanla geniş yayılan və soyuqdəyməyə səbəb olan digər koronaviruslara çevriləcək. Hazırda planetdə 4 koronavirus aktiv şəkildə yayılır, lakin biz onlar haqqında heç düşünmürük də. SARS-CoV-2 onlardan biri olacaq".

Daha əvvəl isə ingilis professoru Kris Uitti peyvənd edilməmiş bütün uşaqların istisnasız olaraq gələcəkdə bir anda mütləq koronavirusa yoluxacağını və təxminən yarısının artıq bu xəstəliyi keçirdiyini bildirib.

Pandemiya başlayanda vaksinin ərsəyə gəlməsini böyük səbirsizliklə gözləyirdik. Hazırda müxtəlif peyvəndlər mövcuddur. Həkimlər birmənalı şəkildə deyir ki, peyvənd olunmaq virusdan qurtulmaq üçün yeganə çıxış yoludur. Ölkəmizdə vaksinasiya prosesinin bir neçə aydır həyata keçirilməsinə baxmayaraq, təəssüf ki, hələ də bəzi vətəndaşlar arasında çaşqınlıq və peyvəndlənməyə həvəssizlik müşahidə olunur.

TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun həkim-infeksionisti Natiq Əliyev deyir ki, bundan əvvəlki dövrlərdə koronavirusa yoluxma sayları artanda statistik olaraq gündəlik rəqəmlərin 4-5 min olacağını gözləyirdik. Lakin hazırda yoluxma sayının 4-5 min arasında olacağı haqqında fikir yürütmək çətindir. Səbəbi odur ki, viruslar mutasiyaya daha meyillidirlər. Mutasiya zamanı sürətlə bölünüb çoxalma, yayılma, faizinin artması kimi xüsusiyyətlər üzə çıxır. Hər mutant növün spesifik xüsusiyyəti olur. "Delta" növünün bir xüsusiyyəti sürətli yayılma qabiliyyətidir. Digər tərəfdən həmin növün klinik gedişatının vətəndaşlar arasında yanlış anlaşılmasıdır: "Belə ki, "Delta" ştamının klinik gedişatı tipik COVID-19 kimi deyil, yəni halsızlıq, əzələ ağrısı, subfebril temperatur -37,1°, -37,2° hərarət yox, əsasən burun, göz axıntıları, göz qızartısı, boğaz ağrısı ilə müşahidə edilir. Həmin əlaməti olanlar onu soyuqdəymə ilə qarışdırır və koronavirusa yoluxduqlarını düşünmürlər. Nəticədə digər insanlarla kontaktı davam etdirir və onları da yoluxdururlar. Birinin 10 nəfəri yoluxdurma tsiklini götürsək, məsələ bir qədər də aydınlaşar. Payız fəsli yuxarı tənəffüs infeksiyalarının aktivləşdiyi bir dönəmdir. Həmin aylarda koronavirusa yoluxma sayında artım da ola bilir, azalma da. Çünki yuxarıda söylənilənlər kimi, insanlar adi qriplə koronavirus xəstəliyini səhv sala bilir".

Həkimin sözlərinə görə, SARS-CoV-2-yə, yəni yeni növ koronavirusa uşaqların yoluxmadığı deyil, onların xəstəliyi rahat və heç bir klinik şikayət olmadan, 1-2 günlük simptomatik əlamətlərlə keçirdiyi və hospitalizasiyaya ehtiyacının yaranmadığı müşahidə edilir. "Delta" ştamının təhlükəli cəhətlərindən biri uşaqlar arasında sürətlə yayılma, ağciyər, kardiovaskulyar, doğuşdan hər hansı bir patologiyası olanlarda daha ağır gedişata malik olmasıdır. Uşaqlarda immun sistem daim aktiv olduğu üçün böyüklərə nisbətən onun öhdəsindən tez gələ bilərlər. Lakin bu dönəmdə uşaqların pediatr-infeksionist nəzarəti altında olmaları tövsiyə edilir.

Dövlət tərəfindən əhalinin vaksinasiya olunması, sağlamlığının qorunması və təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm addımlar atılır. Azərbaycan dünyanın aparıcı ölkələri ilə eyni vaxtda vaksinasiya prosesinə başlayıb, bu gün də pandemiyaya qarşı mübarizədə əhəmiyyətli tədbirlər həyata keçirir. Ölkəmizdə vətəndaşların COVID-19 xəstəliyi əleyhinə vaksinasiya olunmasında mühüm işlər görülüb. Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib və bu ilin yanvarından vətəndaşların peyvənd olunmasına başlanılıb. Əhali də bütün görülən işlərə biganə qalmamalı, birgə vətəndaş mövqeyi nümayiş etdirməli, hər zaman olduğu kimi, yenə də dövlətimizin yanında olmalıdır. Çünki biz vətəndaşını düşünən, milli təhlükəsizliyinə önəm verən bir dövlətdə yaşayırıq.

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

# Azərbaycanda əhalinin 53,2 faizi koronavirusa qarşı peyvəndin hər iki dozasını alıb

"2021-ci il yanvarın 18-dən ölkəmizdə vaksinasiya başlayıb, doqquz ay ərzində artıq əhalinin 53,2 faizi ikinci doza vaksin alıb. Bakı şəhərində bu göstərici daha yüksəkdir - 66,2 faiz təşkil edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri səhiyyə nazirinin müavini Viktor Qasımov Milli Məclisin Səhiyyə komitəsi tərəfindən ölkəmizdə koronavirus infeksiyası (COVID-19) ilə bağlı mövcud vəziyyət, vaksinasiya və görülən digər tədbirlərlə bağlı keçirilən dinləmələr zamanı səsləndirib. Viktor Qasımov bildirib ki, təkcə sentyabr ayı ərzində 1,7 milyon doza vaksin istifadə olunub. Bu, orta hesabla gündə 60 min peyvənd deməkdir. "Buster doza bizdə ilk olaraq səhiyyə işçiləri və 60 yaşdan yuxarı əhaliyə tətbiq edilməyə başlanılıb. Günü sabah tibbi qərargahda buster dozanın daha da genişləndirilməsi məsələsinə baxılacaq. Yəqin ki, digər yaş kateqoriyaları da buna cəlb ediləcək. Ölkəmizdə bu günə kimi vaksin alanların təkrarən yoluxması 1,34 faiz təşkil edir. Yəni ki, Azərbaycanda istifadə olunan peyvənd çox effektivdir. Biz bunu artıq öz təcrübəmizdən görürük", - deyə səhiyyə nazirinin müavini qeyd edib.

Onun sözlərinə görə, ölkəmizdə Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən 16-18 yaşlı uşaqlara "Pfizer" vaksininin tətbiqinə artıq icazə verilib. Bu, xüsusən xarici ölkələrə oxumağa gedənlərlə əlaqəlidir. Çünki qarşı tərəfdə bu peyvənd tələb edilir. Oxşar səbəbə görə, həmçinin hər iki valideynin icazəsi olmaqla 12-15 yaşlı uşaqlara da vaksinin tətbiqinə icazə verilib.







*Təkrar*

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün mebel inventarlarının satın alınması məqsədilə

## *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 400 (dörd yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi,18 nömrəli ünvandan (əlaqələndirici şəxs: İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

Təşkilat: Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının peşəkarlığı və təcrübəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *Azərbaycan Respublikasının mövcud qanunvericiliyində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər çərçivəsində qəbul olunmuş sertifikatlar (mənşə, uyğunluq və s.);*
- *iddiaçının 2020-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə (təhsil müəssisələrinə) qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2021-ci il tarixədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **01.11.2021-ci il saat 16:00-dək** tender təklifi və tender təklifinin bank təminatını **11.11.2021-ci il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **12.11.2021-ci il saat 16:00-da** Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Umayra TAĞIYEVA: "Son altı gündə düşən yağıntı aylıq norma qədər olub"

İlin hər bir fəsli hava şəraitinin fərqləndirici xüsusiyyətləri ilə bərabər özünəməxsus gözəllikləri ilə seçilir. Payız fəsli də bu baxımdan istisna deyil. Payızın ortalarında artıq günlərin qısalması və havaların soyuması daha çox hiss edilir.

Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib ki, bu ilin oktyabr ayı havanın temperaturunun enməsi, yağışlı və çiskinli günlərlə başlayıb. Hətta bəzi bölgələrdə son altı gündə ay ərzində düşən miqdarda yağıntı qeydə alınıb, yağıntılar intensiv və güclü olub, dağlıq ərazilərdə qar yağıb: "Ayın əvvəli son illərdə oktyabr ayında müşahidə edilən hava şəraitindən xeyli fərqləndi. Paytaxt buludlara büründü, tutqun payız ab-havası bizi əhatə etdi, hər gün yağış yağdı. Buna səbəb Mərkəzi Rusiyadan gələn soyuq antisiklonun qolu və sıra-sıra ərazimizə daxil olan soyuq atmosfer cəbhələrinin təsiridir".

U.Tağıyevanın sözlərinə görə, düşən yağıntının miqdarı Şəmkirdə aylıq normanın 94, Ağstafada 103, Oğuzda 93, Balakəndə 98, Zaqatalada 111, Lənkəran-Astara zonasında 23-41 faizini (63-103 millimetr) təşkil edib: "Bu ay, eyni zamanda, sel hadisələri qeydə alınıb. Yağan leysan nəticəsində Əsrikçay-Əsrikcırdaxan (Tovuz), Girdimançay-Qaranohur (İsmayıllı), Talaçaydan (Zaqatala) sel keçib. Qar örtüyünün hündürlüyü Şahdağda 4, Qrız, Xınalıqda 3, Lazada 2 santimetr təşkil edib. Havanın orta sutkalıq temperaturu 16.9, 2020-ci ilin müvafiq dövründə isə 20.2 dərəcə isti olub ki, bu da ötən illə müqayisədə 3.3 dərəcə aşağıdır".

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları **SƏİDƏ NOVRUZOVANIN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və aparat işçiləri AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **NAZİM İSMAYIL OĞLU AĞAMİROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Aparatın kollektivi iş yoldaşları Elxan Nağıyevə anası **TƏRLAN İSMAYILOVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5611
Sifariş 1871
Qiyməti 40 qəpik